RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 248 (9993) 22 noyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan media sahəsində mühüm təşəbbüslərlə çıxış edir

## "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) ilk Media Forumunda Sizi səmimi-qəlbdən salamlayıram. Bu forumun Azərbaycanın təşəbbüsü ilə birinci dəfə Bakı şəhərində keçirilməsi mühüm hadisədir.

Bildiyiniz kimi, keçən il Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilmişdir. Əlamətdar haldır ki, otuz ilə yaxın müddət ərzində fəaliyyət göstərən bu təşkilat ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul etmişdir. Bu, ölkəmizə olan beynəlxalq etimadın göstəricisi, təşkilata üzv olan hər bir ölkə ilə möhkəm dostluq və əməkdaşlıq münasibətlərimizin, birliyimizin və həmrəyliyimizin təzahürü idi. 1,2 milyard əhalini əhatə edən və böyük iqtisadi potensiala malik D-8 təşkilatına üzv olan dövlətlər ortaq dini-mədəni dəyərləri bölüşürlər. Bu gün artıq üç qitəni əhatə edən D-8 platforması dayanıqlı iqtisadi artım, rəqəmsal transformasiya, süni intellekt, qlobal iqlim dəyişmələri ilə mübarizə və enerji təhlükəsizliyi kimi mühüm sahələrdə inkişafı irəli aparmaq üçün geniş imkanlara malikdir. Azərbaycan enerji, nəqliyyat və kommunikasiya sahələrində D-8 ölkələri ilə çoxşaxəli tərəfdaşlıqlar qurmaqla regional və beynəlxalq əməkdaşlığın mühüm iştirakçısına çevrilmişdir.

Azərbaycan D-8 ailəsinin üzvü olduğu gündən təsisatın inkişafı ilə bağlı səylər göstərir. Bu, təkcə iqtisadi deyil, həm də mədəni, sosial və humanitar əməkdaşlıq sahələrində özünü büruzə verir. Azərbaycanın D-8-ə üzvlüyə qəbul edilməsindən ötən bir ilə yaxın müddət ərzində ölkəmizin təşəbbüsü ilə Bakı şəhərində D-8 ölkələrinin QHT-lərinin ilk dəfə görüşü təşkil olunmuş, D-8 Həftəsi çərçivəsində "D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoq"u baş tutmuşdur. Azərbaycan bundan sonra da təsisat çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinə öz töhfəsini verməyə davam edəcəkdir.

Dost ölkələrin ictimai-siyasi xadimlərini, kommunikasiya üzrə mütəxəssislərini, media nümayəndələrini bir yerə toplayan bu forumun qlobal informasiya məkanında meydana çıxan yeni çağırışları müzakirə etmək və ortaq məqsədlərə çatmaq üçün səmərəli platforma olacağına inamımı ifadə edirəm. Qlobal böhranlar, bəşəriyyət qarşısında duran yeni sınaqlar və çətinliklər dövründə ölkələrimizin bir-birinə qarşılıqlı dəstək göstərməsi, o cümlədən media sahəsində həmrəyliyi nümayiş etdirməsi olduqca vacibdir.

Müasir dünyada informasiya adi xəbər olmaqla məhdudlaşmır, beynəlxalq münasibətlərin, ictimai rəyin və iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsinə çevrilərək xalqlar arasında etimadın və anlayışın formalaşmasında mühüm rol oynayır.

Hazırda media mühiti sürətli transformasiyaya məruz qalır. Təəssüflər olsun ki, qlobal informasiya məkanında dezinformasiya, saxta xəbərlər, hibrid təhdidlər, "deepfake"lər, süni intellektin imkanlarından sui-istifadə və digər manipulyasiya halları dayanmadan artmaqdadır. Bu amillər ölkələrin imicinə, daxili həyatına ciddi təsir göstərməklə yanaşı, bütövlükdə beynəlxalq sabitliyə zərbə vurur və ölkələr arasında etimadı sarsıdır. Bu səbəbdən D-8 Media Forumunun əsas vəzifələrindən biri - doğru, qərəzsiz, obyektiv və məsuliyyətli informasiya mühitinin qurulması üçün üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın formalaşdırılmasıdır.

Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir. Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq, jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik.

Bugünkü forum dost ölkələrin media qurumları arasında qarşılıqlı təcrübə mübadiləsi üçün əlverişli imkanlar yaradan yeni əməkdaşlıq müstəvisidir. İnanıram ki, burada səslənəcək ideyalar, təkliflər və irəli sürüləcək birgə layihə təşəbbüsləri gələcəkdə D-8 ölkələrinin informasiya siyasətində mühüm rol oynayacaqdır.

D-8 Media Forumunun xalqlarımız arasında əməkdaşlıq, qarşılıqlı etimad və həmrəyliyin möhkəmlənməsinə, informasiya təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verəcəyinə ümidvar olduğumu bildirir, forumun işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2025-ci il*

# VAHİD GEO SİYASİ İQTİSADİ REGİON



Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə Prezident İlham Əliyev Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olub, bu müddət ərzində həmkarları respublikamıza 23 dəfə səfər ediblər.

Mərkəzi Asiya dövlətlərinin rəhbərlərinin Qarabağ bölgəsinə səfər etmələri isə ölkələrimiz arasındakı həmrəyliyin əyani təzahürüdür. Bu il iyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə Görüşü zamanı bu dostluq və həmrəylik bir daha nümayiş etdirildi.

Sözügedən dövlətlər işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən quruculuq və bərpa işlərində də yaxından iştirak edirlər. Özbəkistan, Qazaxıstan və Qırğızıstan dövlətlərinin xalqımıza hədiyyələri olan Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda Aykol Manas adına məktəb fəaliyyət göstərir.

Bu il 7 oktyabr tarixində Füzulidə Türkmənistan tərəfindən tikiləcək məscidin təməli qoyulub.

Bütün bunlar dost dəstəyinin örnəkləridir. Bu mənada Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi qəbul edilməsi də təsadüfi deyildi.

Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışında dövlətimizin rəhbəri İlham Əliyev vurğuladı ki, bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir.

7

# Qlobal media mühiti sürətli transformasiya dövrü yaşayır

## D-8 Media Forumunun ölkəmizdə keçirilməsi Azərbaycanın bu sahəyə yüksək diqqət və qayğı göstərdiyinin bariz nümunəsidir




D-8-ə üzv olan ölkələrin 1,2 milyard nəfərə yaxın əhalisi var və dünyanın geniş coğrafiyasını birləşdirən təşkilatdır. Eyni zamanda qlobal çağırışlarla bağlı media forumunun keçirilməsi göstərir ki, Azərbaycan digər sahələrdə olduğu kimi, bu sahədə də dünyada baş verən qlobal dəyişikliklərə önəm verir. Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı müraciətində qeyd etdiyi istiqamətlər çox vacibdir.

Forumun panellərində dünyada media ilə bağlı məsələlərin müzakirəsi onu göstərir ki, Azərbaycan növbəti mərhələlərdə D-8-ə üzv ölkələrlə həm də media sahəsində əməkdaşlığı gücləndirəcək. Azərbaycan jurnalistləri üçün də bu forum bir "yol xəritəsi" olacaq.

Bu əməkdaşlıq həm regionda, həm də qlobal səviyyədə daha sabit və şəffaf media ekosisteminin qurulmasına mühüm töhfə verə bilər. Növbəti illərdə forumun, verilən qərarların əhəmiyyətini üzv ölkələrin cəmiyyətlərinin fəaliyyətində aydın şəkildə görəcəyik. Bundan sonra digər üzv ölkələrdə keçirilən media forumlarında Azərbaycan jurnalistlərinin, media nümayəndələrinin də iştirakı gözlənilir.

6

# Belem Bakı standartına çata bilmədi

## COP-un mesajı isə dəyişməz qalır: zaman daralır, hər addım vacibdir

COP29 ümumilikdə gələcək iqlim prosesləri üçün siyasi və maliyyə çərçivəsini qurdu. COP30 isə həmin çərçivənin real həyata keçirilməsini test edən mərhələdir və burada problemlər bir-birinin ardınca üzə çıxır. Xüsusilə maliyyə məsələlərində dərin fikir ayrılıqları danışıqları çətinləşdirir, karbon emissiyalarından mərhələli çıxış üzrə yol xəritəsi ölkələri qarşı-qarşıya qoyur, yenilənmiş milli iqlim planları gecikir və logistik çətinliklər barədə narazılıqlar artır. Qlobal tədbirin Amazon bölgəsində keçirilməsinin əhəmiyyəti böyük olsa da, Braziliyanın öz enerji siyasəti də tənqid olunur. Nəticə etibarilə COP29-un uğurlu və nümunəvi formatından sonra COP30 daha gərgin, siyasi cəhətdən parçalanmış və problemlərlə yüklənmiş görünür. COP29 planlaşdırmanı təmsil edirdisə, COP30 həmin planların taleyini müəyyən edən həlledici icra mərhələsinə çevrilib.

9




# Bakının sülh səyləri praktik müstəvidə də öz təsdiqini tapır




20 sentyabr 2017-ci ildə Prezident İlham Əliyev Nyu Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxışında demişdi: "Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir".

Azərbaycan Prezidentinin tarixi çıxışının üzərindən cəmi üç il keçdikdən sonra ölkəmiz BMT TŞ-nin onilliklər boyu beynəlxalq ictimaiyyət tərəfindən icrasına məhəl qoyulmayan dörd qətnaməsinin hərb yolu ilə yerinə yetirilməsini təmin etdi. Bunun nəticəsində açılan Qarabağ düyünü Cənubi Qafqazda sülhün qapısının açarı rolunu oynadı.

Cari il 8 avqust tarixli Vaşinqton görüşündə bölgədə davamlı normallaşmanın təməlləri atıldı, əldə edilən mühüm razılaşmalar regiona uzunmüddətli inkişaf üçün yeni səhifələr açdı.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın normallaşma istiqamətində atdığı addımlar, bu prosesə verdiyi əməli töhfələr hazırda bölgədə müşahidə olunan faktiki sülhün səbəbidir. Bütün əldə olunan bu uğurlar isə təkcə Cənubi Qafqazın inkişafı ilə məhdudlaşmır, daha geniş coğrafiyaya hərtərəfli əlaqələr və əməkdaşlıq üçün mühüm zəmin formalaşdırır.

6

# “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə Vyetnam Sosialist Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il oktyabrın 26-da Hanoy şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti ilə Vyetnam Sosialist Respublikasının İctimai Təhlükəsizlik Nazirliyi arasında təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Vyetnam Sosialist Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2025-ci il*

# Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sisteminin yaradılması və bununla əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi (bundan sonra - MİRAS) yaradılsın.

2. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mərkəzləşdirilmiş İnformasiya və Rəqəmsal Analitika Sistemi haqqında Əsasnamə" təsdiq edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti:

5.1. MİRAS-ın formalaşdırılması, aparılması, fəaliyyətinin təşkili və inkişaf etdirilməsi, həmçinin ondan səmərəli istifadənin təmin edilməsi üçün zəruri tədbirlər görsün;

5.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə MİRAS-ın "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün.

6. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Əsasnamənin 3-cü hissəsində göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə olunmasını təmin etmək məqsədilə altı ay müddətində zəruri tədbirlər görsünlər və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2025-ci il*

# ”Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 339** **Bakı şəhəri, 19 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 25 sentyabr tarixli 211 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 937 (Cild I) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 6-cı hissədə "işləyənlər iş yerindən, işləməyənlər isə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin yerli qurumları və ya "DOST" mərkəzləri tərəfindən təmin edilirlər" sözləri "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"na əsasən təmin olunurlar" sözləri ilə əvəz edilsin.

2. 9-cu hissə aşağıdakı redaksiyada verilsin:

"9. "Geri qayıtma" talonu sanatoriya-kurort müəssisəsi tərəfindən aidiyyəti quruma təhvil verilməlidir. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinə və "DOST" mərkəzlərinə təhvil verilmiş "Geri qayıtma" talonunun 3 (üç) iş günü müddətində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Sanatoriya-kurort" altsistemi vasitəsilə qeydiyyatı aparılır və onun sanatoriya-kurort putyovkasından istifadəsini təsdiq edən sənəd kimi saxlanılması təmin edilir. İşləyən şəxslərə münasibətdə isə "Geri qayıtma" talonunun qeydiyyatının aparılması və onun saxlanılması məsələləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 141-ci bəndinə uyğun təmin edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# İşğaldan azad olunmuş ərazilərə İsveçrə investisiyalarının cəlb olunması imkanları müzakirə edilib

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyində - AZPROMO-da İsveçrənin Azərbaycandakı səfiri Tomas Ştəli ilə görüş keçirilib.**

AZPROMO-dan AZƏRTAC-a bildirilib ki, görüş zamanı qurumun icraçı direktoru Yusif Abdullayev agentliyin fəaliyyət istiqamətləri, Azərbaycan və İsveçrə arasında investisiya əməkdaşlığının hazırkı vəziyyəti və inkişaf dinamikası barədə məlumat verib. Bundan başqa, qarşı tərəfə cari ilin sentyabr ayında keçirilmiş 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun nəticələri barədə məlumat təqdim olunub.

Səfir Tomas Ştəli iki ölkə arasında iqtisadi münasibətlərin güclənməsi üçün böyük potensialın olduğunu bildirib və investisiya əməkdaşlığının gələcək perspektivlərini yüksək qiymətləndirib.



Azərbaycan və İsveçrə şirkətləri arasında tərəfdaşlıq imkanlarının müəyyən edilməsi, qarşılıqlı səfərlərin təşkili və biznes əlaqələrinin genişləndirilməsi üzrə fikir mübadiləsi aparılıb.

Görüşdə həmçinin işğaldan azad olunmuş ərazilərə İsveçrə investisiyalarının cəlbi imkanları müzakirə edilib.

# Azərbaycan Respublikası ədliyyə orqanları işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Ədliyyə orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Əbilov Adil Fazil oğlu
Muradova Aytən Cahangir qızı
Nəsibov Elçin Rafiq oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abdullayeva Gültən Ramiz qızı
Abdulov Hakim Abdulhəsən oğlu
Hüseynov Emil Fuqan oğlu
İsayev Oqtay Əli oğlu
Məmmədov Cavid Mirzəbaba oğlu
Məmmədov Yunis Məmməd oğlu
Muradova Mətanət Fadil qızı
Zakirova Leyla Əziz qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 noyabr 2025-ci il*

# Baş nazir Əli Əsədov Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov noyabrın 21-də Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Dorin Boqdan-Martin ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Beynəlxalq Telekommunikasiya İttifaqının Bakıda keçirilən Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının əhəmiyyəti vurğulanıb. Konfransın Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda ilk dəfə Azərbaycanda təşkil edilməsi əlamətdar hadisə kimi qiymətləndirilib, tədbirdə 2500 mütəxəssisin iştirak etdiyi qeyd olunub.

Konfrans çərçivəsində Bakı şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqının Regional Akselerasiya Mərkəzinin açılışının əhəmiyyətinə toxunularaq, mərkəzin region üçün innovasiya və sahibkarlıq sahəsində aparıcı platformaya çevriləcəyinə əminlik ifadə olunub.

Azərbaycanda İKT sektorunun, informasiya və biliklər iqtisadiyyatının, süni intellektin inkişaf etdirilməsi, rəqəmsal infrastrukturun genişləndirilməsi, kibercinayətkarlıqla mübarizənin gücləndirilməsi sahələrində görülən ardıcıl tədbirlər barədə söhbət açılıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti İKT sektorunun inkişafını ölkəmizdə prioritet istiqamət elan edib. Cari ildə Rəqəmsal İnkişaf Konsepsiyası və 2025-2028-ci illəri əhatə edən Süni İntellekt Strategiyası təsdiq edilib.

Azərbaycanın bu gün 100 faizlik genişzolaqlı internet əhatə dairəsi ilə regionda lider mövqe tutduğu diqqətə çatdırılıb.

Yüksək texnologiyaların inkişafının "ağıllı şəhər/ağıllı kənd" konsepsiyasının tətbiqinə zəmin yaratdığı diqqətə çatdırılıb, hazırda ölkəmizin işğaldan azad edilmiş ərazilərində bu konsepsiyaya əsaslanan unikal və innovativ şəhərsalma modelinin geniş tətbiqi barədə məlumat verilib.

Görüşdə Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında rəqəmsal transformasiya, kibertəhlükəsizlik, elektron hökumət və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

Beynəlxalq Telekommunikasiya İttifaqının beynəlxalq təcrübəsinin, xüsusilə, rəqəmsal idarəetmə, rəqəmsal bacarıqların artırılması sahəsində tətbiqin ölkəmiz üçün faydalı olacağı qeyd edilib.

Eyni zamanda Azərbaycan nümayəndələrinin Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbər orqanlarında və işçi qruplarında təmsilçiliyinin artırılması, xüsusilə İttifaqın Şurasında ölkəmizin üzvlüyünün növbəti müddətə uzadılması və ikitərəfli əməkdaşlıq gündəliyində duran digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının ümumi yığıncağı keçirilib

## Kənd bələdiyyələrinin sayı 1383-dən 513-ə endirilib

**Göyçayda ölkənin bütün şəhər və rayonlarında fəaliyyət göstərən kənd bələdiyyələrini təmsil edən 167 nümayəndənin iştirakı ilə Azərbaycan Kənd Bələdiyyələrinin Milli Assosiasiyasının ümumi yığıncağı keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Assosiasiyanın 2023-2024-cü illərdə fəaliyyəti haqqında hesabat, Nəzarət-təftiş komissiyasının hesabatı, eləcə də təşkilati və digər məsələlər müzakirə olunub.

Yığıncaqda qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət bələdiyyə orqanlarının ictimai-siyasi həyata inteqrasiyasını da gücləndirib, vətəndaşların yerli özünüidarəetmədə fəallığı artıb. Hesabat ilində Prezident Administrasiyasının müvafiq şöbəsinin dəstəyi, həmçinin Milli Məclisin Regional məsələlər komitəsi, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş baş idarəsi və digər qurumlarla birgə bələdiyyələrin daha səmərəli fəaliyyəti istiqamətində sistemli tədbirlər həyata keçirilib, qabaqcıl təcrübələrin tətbiqi və qanunvericilik bazasının təkmilləşdirilməsi davam etdirilib.

Bildirilib ki, bələdiyyələrin iqtisadi potensialının artırılması məqsədilə fəaliyyətin əlaqələndirilməsi gücləndirilib, "Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sistemi" əsaslı şəkildə yenilənib. İnzibati inteqrasiya və vergi-uçot sistemində aparılan optimallaşdırma nəticəsində kənd bələdiyyələrinin büdcə daxilolmalarında əvvəlki illərlə müqayisədə 18 faizədək artım qeydə alınıb.

Kənd bələdiyyələri hesabat dövründə aztəminatlı ailələrə, qocalara, əlillərə, valideyn himayəsindən məhrum uşaqlara, müharibə iştirakçıları və şəhid ailələrinə sosial dəstək layihələri həyata keçirib, kənd təsərrüfatının prioritet sahələri üzrə ailə-kəndli təsərrüfatlarının inkişafına yardım göstərib. Yerli əhəmiyyətli problemlərin həlli istiqamətində real addımlar atılıb.

Qeyd olunub ki, yerli özünüidarəetmənin təkmilləşdirilməsi məqsədilə qəbul edilən qanunvericilik aktlarına uyğun olaraq bələdiyyələrin birləşdirilməsi həyata keçirilib. Potensialı zəif olan kiçik kənd bələdiyyələrinin birləşdirilməsi nəticəsində ölkədə kənd bələdiyyələrinin sayı 1383-dən 513-ə endirilib. Bu ilin yanvarında keçirilən seçkilər nəticəsində 685 bələdiyyə yenidən formalaşdırılıb.

Milli Assosiasiya ötən dövrdə beynəlxalq təşkilatlarla, xarici ölkələrin bələdiyyələri və assosiasiyaları ilə əməkdaşlıq əlaqələrini davam etdirib.

Yığıncaqda vurğulanıb ki, Prezident İlham Əliyevin 2025-ci il 11 iyul tarixli fərmanı ilə Bələdiyyələrin Avtomatlaşdırılmış Məlumat Sisteminə dövlət informasiya sistemi statusunun verilməsi, sistemin fəaliyyətinin təşkilinə dair müəyyən edilən tələblər və assosiasiyalara göstərilən etimad bələdiyyə fəaliyyətində şəffaflıq və hesabatlılığın təmin olunmasına mühüm töhfə verəcək. Vahid informasiya sisteminin tətbiqi korrupsiya hallarının qarşısının alınmasında da əhəmiyyətli rol oynayacaq.

Ümumi yığıncağın sonunda müzakirə olunan məsələlər üzrə müvafiq qərarlar qəbul edilib. Bələdiyyələrin müasir çağırışlara uyğun fəaliyyətinin təmin olunması məqsədilə maliyyə, kadr və texniki bazanın daha da gücləndirilməsi əsas istiqamətlər kimi müəyyənləşdirilib.

Tədbirdə Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin, Ədliyyə Nazirliyinin, eləcə də Azərbaycan Şəhər və Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyalarının nümayəndələri iştirak ediblər.

## Milli Məclisin iclasında

# Vergi Məcəlləsinə dəyişikliklər iqtisadi fəallığın artmasına xidmət edəcək

**Noyabrın 21-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasda hökumət üzvləri və nümayəndələri iştirak ediblər.**




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova gündəlikdəki növbəti məsələnin Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) olduğunu söyləyib.

Qanun layihəsini təqdim edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirib ki, Vergi Məcəlləsinə və əlavə 16 qanunvericilik aktına dəyişikliklər edilməsini nəzərdə tutan bu layihə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında geniş müzakirə olunub, aidiyyəti qurumlar tərəfindən əhatəli təqdimatlar edilib. Qeyd olunub ki, Vergi Məcəlləsinə dəyişikliklər 2026-cı ilin büdcə zərfinin əsas tərkib hissəsi olaraq büdcənin parametrləri ilə bilavasitə bağlıdır. Bu dəyişikliklər yeni sahələr üzrə təşviqlərin verilməsini, vergi yığımı bazasının genişləndirilməsini nəzərdə tutur. Layihədə təklif olunan dəyişikliklər ölkənin iqtisadi inkişafını sürətləndirmək, kölgə iqtisadiyyatı ilə mübarizə tədbirlərini gücləndirilmək, daxili bazarı qorumaq və idxaldan asılılığı azaltmaq, strateji sahələrə investisiyaların təşviqi və inzibatçılığın təkmilləşdirilməsi üzrə istiqamətləri əhatə edir.

Komitə sədri diqqətə çatdırıb ki, Vergi Məcəlləsinə dəyişikliklər, ilk növbədə, qeyri-neft özəl sektorunda əməkhaqqı gəlirləri üzrə fiskal yükün tənzimlənməsi ilə bağlıdır. Belə ki, 2019-cu ildən qeyri-neft sektorunun özəl bölməsində muzdla işləyən şəxslərin aylıq gəlirlərinə vergi və sosial sığorta haqları üzrə güzəşt mexanizmi tətbiq edilir. 2026-cı ildə güzəşt dövrü başa çatır və gəlir vergisi 2500 manatadək gəlirlər üzrə 14 faiz, 2500 manatdan artıq gəlirlər üzrə isə 25 faiz tətbiq olunmalıdır. Ancaq Vergi Məcəlləsinə təklif olunan dəyişikliklər 2019-cu ildən əvvəlki vergi dərəcələrinin olduğu kimi yenidən bərpasını deyil, yeni güzəştli rejimin tətbiqini nəzərdə tutur. Dəyişikliklərə əsasən, 2500 manatadək gəliri olan şəxslər üzrə gəlir vergisi 14 faiz əvəzinə 2026-cı ildə 3 faiz, 2027-ci ildə 5 faiz, 2028-ci ildən isə 7 faiz dərəcə ilə tətbiq ediləcək. Nəticədə bu, region ölkələri arasında ən aşağı göstərici olacaq.

Layihədə işğaldan azad edilmiş ərazilər üzrə müəyyən edilmiş vergitutma rejiminin eynilə Naxçıvan Muxtar Respublikasına da şamil edilməsi nəzərdə tutulur. Belə ki, 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət, əmlak, torpaq və sadələşdirilmiş vergidən azadetmə tətbiq ediləcək. Bu dəyişikliyin məqsədi muxtar respublikada iqtisadi fəallığın artırılması, investisiyaların cəlbi, məşğulluq səviyyəsinin və əhalinin rifahının yüksəldilməsidir. Bununla yanaşı, muxtar respublikada sığortaedənlər tərəfindən işçilərə görə ödənilən məcburi dövlət sosial sığorta haqlarının subsidiyalaşdırılması da təklif edilir.

Bildirilib ki, dəyişikliklərə əsasən, yerli avtomobil sənayesinin dəstəklənməsi üçün də müvafiq güzəştli vergi rejimi tətbiq ediləcək. Habelə balıqçılıq (balıq kürüsünün istehsalı istisna olmaqla) kənd təsərrüfatı məhsullarının istehsalına aid edilməklə, aqrar sahəyə verilən güzəştlər balıqçılığa da şamil ediləcək.

Media sahəsinə dəstəyin davam etdirilməsi məqsədilə növbəti 3 il ərzində də media subyektlərinə verilmiş vergi güzəştlərinin müddətinin uzadılması nəzərdə tutulur.

Layihədə rezident fiziki şəxslərin xaricdən əldə etdikləri dividend gəliri üzrə vergi dərəcəsinin 14 faizdən 5 faizə endirilməsi təklif olunur.

Kirayə bazarı üzrə fiziki şəxslərə məxsus, sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunmayan yaşayış sahələrinin kirayə haqları üzrə vergi dərəcəsinin optimallaşdırılaraq 14 faizdən 10 faizə endirilməsi təklif olunur.

Nağdsız əməliyyatların stimullaşdırılması məqsədilə ictimai iaşə fəaliyyəti sahəsində ƏDV və sadələşdirilmiş vergi üzrə güzəştlərin verilməsi nəzərdə tutulur. Belə ki, ƏDV qeydiyyat öhdəliyi yaradan 200 min manatlıq dövriyyə həddinin pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə nağdsız ödəmələrə münasibətdə 2 dəfə artırılması təklif edilir. Sənəddə "ƏDV gerial" mexanizminin tətbiqi dairəsinin genişləndirilməsi də nəzərdə tutulur. Habelə dövlət-özəl tərəfdaşlığı müqaviləsi çərçivəsində özəl tərəfdaş və ya layihə şirkətinin tikinti işlərinə cəlb etdiyi podratçılara idxalda ƏDV və gömrük güzəştlərinin şamil edilməsi təklif olunur.

Azər Əmiraslanov eyni zamanda qeyd edib ki, "Gömrük tarifi haqqında" qanuna edilən dəyişiklikdə Naxçıvan Muxtar Respublikasında sənaye və texnologiyalar parklarının rezidentləri və investisiya təşviqi sənədi almış şəxslər tərəfindən idxal olunan mallar üzrə, müdafiə və dövlət təhlükəsizliyi məqsədləri üçün istifadə olunan bütün növ texnika və texniki vasitələrin, onların ehtiyat hissələrinin, xüsusi proqram təminatlarının və silah-sursatın, dövlət-özəl tərəfdaşlığı layihələri üzrə texnika və avadanlıq, ölkədə istehsal olunan yük avtomobillərinin ehtiyat hissələrinin idxalı üzrə gömrük rüsumlarından azadolma təklif edilir.

Digər bir dəyişiklikdə "Nağdsız hesablaşmalar haqqında" qanunun 3.5-ci maddəsində vergi ödəyicisi olmayan fiziki şəxslərdən nağd qaydada satın alınan malların siyahısına "tullantı yağlarının" əlavə edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, "Sosial sığorta haqqında" qanuna fərdi sahibkarların sosial sığorta yükünün tənzimlənməsi ilə bağlı dəyişiklik də nəzərdə tutulur. Dəyişikliyə əsasən, bütün fərdi sahibkarlar dövriyyədən 2 faiz dərəcə ilə məcburi dövlət sosial sığorta haqqı ödəyir, bu zaman minimum hədd minimum aylıq əməkhaqqının 15 faizi həcmində, maksimum hədd isə minimum əməkhaqqının 1 misli, yəni 400 manat həcmində nəzərdə tutulur.

Layihədə həmçinin büdcə gəlirlərinin tənzimlənməsi ilə bağlı nəzərdə tutulan tədbirlər çərçivəsində alkoqollu içkilərdə, tütün məhsullarında aksiz artımları, mobil cihazlara aksizlərin tətbiqi də nəzərdə tutulur.

Qeyd olunub ki, müzakirəyə təqdim edilən paket ölkədə iqtisadi fəallığın artırılmasını, kölgə iqtisadiyyatının məhdudlaşdırılmasını, vergi-büdcə sistemində sadəliyi və şəffaflığı, daxili istehsalın və ixracın stimullaşdırılmasını təmin edəcək.

Parlamentin Sədri bu qanun layihəsinə daha 6 komitədə baxıldığını qeyd edib və sonra həmin komitələrin rəyləri səsləndirilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli layihədə olan "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" qanunlarda redaktə xarakterli dəyişiklikilərin - "müharibə ilə əlaqədar əlilliyin müəyyən edilməsi" sözlərinin "əlilliyi olan" sözləri ilə əvəz edilməsinin nəzərdə tutulduğunu söyləyib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qanun layihəsinin qəbulunun iqtisadiyyatın inkişafına, vergi və sosial sığorta münasibətlərinin daha da şəffaflaşdırılmasına, sosial ədalətin təmin olunmasına xidmət edəcəyini bildirib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev layihədəki "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanunda nəzərdə tutulan dəyişiklikdə sığorta vəsaitlərinin istifadəsi ilə əlaqədar maddədə "müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş" sözlərinin "əlilliyi olan" sözləri ilə əvəz edildiyini deyib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov rəhbərlik etdiyi komitəyə aid 4 qanuna edilən dəyişikliklərin geniş müzakirə olunduğunu və müsbət dəyərləndirildiyini nəzərə çatdırıb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Zaur Şükürov "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında" qanuna edilən dəyişikliklərlə bağlı qeyd edib ki, sənəddə icbari şəxsi sığorta vəsaitlərinin əlilliyi olan bütün şəxslərə yönəldilməsi təklif olunur.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova bu məsələnin rəhbərlik etdiyi komitədə müzakirə olunduğunu, əlavə rəy və təkliflərin daxil olmadığını söyləyib.

Qanun layihəsi ətrafında aparılan müzakirələrdə parlamentin komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Göydəniz Qəhrəmanov, Azər Badamov, Razi Nurullayev, Bəhruz Məhərrəmov, Rəşad Mahmudov, Aydın Hüseynov, Tahir Mirkişili, Vüqar Bayramov, Soltan Məmmədov, Səyyad Aran, Elçin Mirzəbəyli, Vüqar Rəhimzadə çıxış ediblər.

Deputatlar ölkədə sahibkarlığın inkişafına xüsusi diqqət yetirildiyini vurğulayıblar. Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların bu sahədə dayanıqlılığın, inkişafın və rəqabət qabiliyyətinin yüksəldilməsinin təmin edilməsinə, yerli və xarici investisiyaların təşviqinə xidmət etdiyini bildiriblər. Bununla yanaşı, vergi sahəsində aparılan islahatların ölkənin iqtisadi qüdrətinin artırılmasına və biznes mühitinin genişləndirilməsinə töhfə verdiyini söyləyiblər.

Millət vəkilləri müzakirəyə təqdim olunan qanun layihəsinin mühüm əhəmiyyət kəsb etdiyini, təklif olunan dəyişikliklərin ölkədə sahibkarlıq fəaliyyətinin daha da güclənməsinə yönəldiyini qeyd ediblər. Dəyişikliklərin həm vergi dərəcələrinin yenilənməsi, həm də iqtisadi idarəetmənin, fiskal intizamın və sahibkarlıq mühitinin yeni tələblər əsasında formalaşdırılması məqsədi daşıdığını nəzərə çatdırıblar. Müzakirələr zamanı bir sıra qeyd və təkliflər də səsləndirilib.

Deputatlar çıxışlarında Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümü ilə əlaqədar fikirlərini açıqlayıblar və təbriklərini çatdırıblar. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinə əsaslanan Yeni Azərbaycan Partiyasının xalqımızın istək və arzularını ifadə etdiyini, dövlətçilik məfkurəsini hər şeydən üstün tutaraq, böyük nailiyyətlər qazandığını vurğulayıblar. Bu gün dövlətimizin iqtisadi və siyasi qüdrətinin güclənməsində bu partiyanın və onun Sədri Prezident İlham Əliyevin müstəsna rolunu qeyd ediblər.

İclasda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, maliyyə naziri Sahil Babayev, iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev deputatlar tərəfindən qaldırılan məsələlərə münasibət bildiriblər, verilən sualları ətraflı cavablandırıblar.

Müzakirələrin yekununda qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin son 2 məsələsi Milli Məclisin qərar layihələridir. Bunlar Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında və Azərbaycan Respublikası Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında qərar layihələridir.

Spiker diqqətə çatdırıb ki, həmin qərar layihələri bu iclasda müzakirə olunacaq, lakin bu iki məsələ büdcə zərfinə daxil olan sənədlər üçüncü oxunuşda təsdiqlənən zaman onlarla birlikdə qəbul ediləcək. Parlamentin sədri Azərbaycan Respublikası Milli Məclisinin 2026-cı il üçün xərclər smetası haqqında məlumat vermək üçün sözü Milli Məclisin işlər müdiri Firudin Hacıyevə təqdim edib.

Parlamentin işlər müdiri Firudin Hacıyev Milli Məclisin 2026-cı il üçün xərclər smetası haqqında məlumatı nəzərə çatdırıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında məlumat vermək üçün sözü Hesablama Palatasının auditoru Vüqar İbrahimova təqdim edib.

Vüqar İbrahimov bildirib ki, palatanın 2026-cı il üçün xərclər smetası 11,5 milyon manat məbləğində nəzərdə tutulur. O, palatanın növbəti il üçün nəzərdə tutulmuş xərc istiqamətləri barədə məlumat verib.

Sonra iclasda Milli Məclisin Sədri Sahibə Qafarova Yeni Azərbaycan Partiyasının yaradılmasının 33 illiyi münasibətilə fikirlərini bölüşərək deyib ki, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaradılması ölkəmizin siyasi həyatının müstəsna əhəmiyyətli hadisələrindən biri olub. Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası müstəqil dövlətçiliyimizin inkişafında, ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasında, milli birlik və həmrəyliyimizin gücləndirilməsində son dərəcə böyük rol oynayıb.

Spiker bildirib ki, son 22 il ərzində möhtərəm İlham Əliyevin rəhbərliyi ilə partiyamız cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi ictimai-siyasi proseslərin hərəkətverici qüvvəsinə çevrilib. O qeyd edib ki, Milli Məclisə seçilmiş deputatların böyük əksəriyyəti Yeni Azərbaycan Partiyasının üzvləridir. Bu isə partiyanın cəmiyyətdə və xalq arasında nə qədər böyük nüfuza malik olduğunu göstərir.

Yeni Azərbaycan Partiyası, nəinki ölkəmizin, həm də Cənubi Qafqazın ən güclü siyasi təşkilatıdır.

Milli Məclisin Sədri Yeni Azərbaycan Partiyasının yaradılmasının 33 illiyi münasibətilə partiyanın Sədri cənab İlham Əliyevi, partiya Sədrinin birinci müavini Mehriban xanım Əliyevanı, partiyanın bütün üzvlərini ürəkdən təbrik edib, xalqa və dövlətə xidmət yolunda onlara yeni uğurlar arzulayıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisdə Türkiyə nümayəndə heyəti ilə görüş keçirilib

**Noyabrın 21-də Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri və Çəkməköy Bələdiyyəsinin sədri Orhan Çerkezin rəhbərlik etdiyi Türkiyə nümayəndə heyəti arasında görüş keçirilib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Səhiyyə komitəsinin sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov bildirib ki, dövlət başçıları arasında mövcud olan səmimi dostluq və qardaşlıq münasibətləri iki ölkənin əlaqələrinin bütün sahələrdə yüksələn xətt üzrə inkişafına şərait yaradır. Qeyd olunub ki, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu parlamentin ən çox üzvə malik işçi qrupudur. Parlament spikerlərinin qarşılıqlı səfərlərinin intensivliyi parlamentlərarası əməkdaşlığın daha da möhkəmlənməsinə və qanunvericilik sahəsində təcrübə mübadiləsinin genişlənməsinə zəmin yaradır. Çəkməköy Bələdiyyəsinin sədri Orhan Çerkez iki ölkə arasında mövcud olan dostluğun dərin tarixi köklərə malik olduğunu vurğulayaraq, bu münasibətlərin əsrlər boyu formalaşmış qarşılıqlı hörmət, etimad və həmrəylik üzərində qurulduğunu bildirib. O, tarixi bağlara söykənən bu sarsılmaz dostluğun həm dövlətlərarası, həm də parlamentlərarası əməkdaşlığın daha da inkişaf etməsinə güclü əsas yaratdığını söyləyib.

Görüşdə parlamentin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxış edərək dövlətlərimiz arasındakı dostluq münasibətlərinin tarixi barədə fikirlərini bölüşüb.

Tədbirdə Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar İbrahimov, Eldar Quliyev, Tənzilə Rüstəmxanlı, Ağalar Vəliyev, Heydər Əsədov, Cavanşir Paşazadə, Cavanşir Feyziyev, Əlibala Məhərrəmzadə və Çəkməköy Bələdiyyəsinin Məclis üzvləri iştirak ediblər.

***"Azərbaycan"***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# D-8 Media Forumu

"Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi"

# Bakıda D-8 Media Forumunun açılış mərasimi keçirilib

**Bakıda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin media sahəsinə məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərinin, digər yüksəkvəzifəli nümayəndələrin və sahə üzrə tanınmış ekspertlərin iştirakı ilə "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu keçirilir.**






AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev əvvəlcə Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətini səsləndirib.

Tədbirdə çıxış edən D-8 təşkilatının baş katibi İsiaka Abdulqadir İmam təşkilata üzv ölkələrin əməkdaşlığının təkcə iqtisadiyyatda deyil, həmçinin media və kommunikasiya sahəsində böyük önəm daşıdığını deyib: "Azərbaycan D-8-ə üzv seçilən gündən öz töhfəsini əsirgəməyib, bu təşkilatda qeyri-adi təşəbbüslərlə çıxış edib. Keçən ay keçirilən D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqunda yol xəritəsi müəyyən olunub".

O, Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək, ölkəmizə artıq dəfələrlə səfərə gəldiyini və özünü evindəki kimi hiss etdiyini bildirib: "Azərbaycanın bu mötəbər təşkilata qoşulmasından sonra canlanmalar hiss olunur. D-8 Media Forumunun Bakı şəhərində ilk dəfə olaraq keçirilməsindən çox məmnunuq".

Baş katibin sözlərinə görə, D-8 təşkilatı öz mövqeyini, həmçinin medianın nüfuzunu və təsir gücünü artırmalıdır. "Təşkilatımızın tutduğu mövqeyi beynəlxalq səviyyəyə çatdırmalıyıq. Planlarımızda ümumi yayım assosiasiyasını yaratmaq var. Həmçinin təşkilata üzv ölkələrdə jurnalistika məktəblərinin yaradılmasını və təqaüdlərin ayrılmasını təklif etmək istərdik. Bu tədbirin hər il keçirilməsi medianın inkişaf etdirilməsinə kömək ola bilər. D-8 ölkələrinin birgə əməkdaşlıq edərək fərqlənmə mərkəzi ərsəyə gətirmələri üçün vəsait ayrılmasını təklif edirik", - deyə İsiaka Abdulqadir vurğulayıb.

Pakistanın federal informasiya və yayım naziri Attaullah Tarar Azərbaycanın D-8-in tamhüquqlu üzvü olduqdan sonra bu təşkilata verdiyi dəstəyi dəfələrlə nümayiş etdirdiyini diqqətə çatdırıb. "Təşkilatın inkişafı üçün irəli sürülən təşəbbüsləri doğru istiqamətdə həyata keçirmək mühüm əhəmiyyət kəsb edir və artıq bunun üçün vaxt yetişib. Bu prosesdə əməkdaşlıq əsas amillərdən biridir", - deyə o əlavə edib.

Nazir qeyd edib ki, qlobal informasiya məkanında qeyri-adi transformasiyalar baş verir. Geosiyasi vəziyyətdə yaşanan son hadisələr bu dəyişikliklərə ciddi təsir göstərir. Yeni texnologiyalar ictimai inam və etibarın artırılmasına xidmət etməlidir. Rəqəmsal media ekosistemləri son dövrlərdə xüsusilə önəm qazanıb. Artıq ənənəvi çap mediasından rəqəmsal mediaya keçid sürətlə baş verir və bu sahə dinamik şəkildə inkişaf edir. "Təklif edirəm ki, D-8 təşkilatına üzv dövlətlərin media peşəkarları və media nazirlikləri arasında işçi qrupu yaradılsın. Bu qrup mütəmadi görüşlər keçirərək fikir mübadiləsi aparsın", - deyən pakistanlı nazir, həmçinin media mühitində dezinformasiyanın qarşısını almaq məqsədilə D-8 üzvləri üçün vahid platformanın yaradılmasını təklif edib.

Banqladeşin Məlumat və Yayım Nazirliyinin baş katibi Noor Md. Mahbubul Haq öz növbəsində deyib: "Bu gün biz ənənəvi elektron mediadan deyil, artıq təkamül etmiş yeni mediadan - sosial şəbəkələrdən danışırıq. Sosial şəbəkələr ənənəvi medianın sərhədlərini aşaraq informasiyanın son dərəcə sürətlə yayılmasına imkan yaradır".

O, Banqladeş də daxil olmaqla, gənc nəsil üzərində informasiyanın təsirinin güclü olduğunu bildirib. "Süni intellekt əsasında yaradılan xəbərlərlə tez-tez rastlaşırıq və insanlar çox zaman onların düzgünlüyünü yoxlamadan qəbul edirlər. Bu gün biz yeni formalaşan texnologiyalarla işləyirik və buna görə də peşə bacarıqları mütəmadi yenilənməlidir. Dezinformasiyanın yayılmasının qarşısını almaq üçün isə sıx əməkdaşlıq vacibdir", - deyə baş katib əlavə edib.

Misir Ərəb Respublikasının Kütləvi İnformasiya Vasitələrinin Tənzimlənməsi üzrə Ali Şurasının sədr müavini Essam Alamir İsmayıl Xəlil D-8 təşkilatına üzv dövlətlər arasında dialoqun, əməkdaşlığın və koordinasiyanın gücləndirilməsi naminə sıx əməkdaşlığa böyük ehtiyac olduğunu qeyd edib. O bildirib ki, D-8 təşkilatı çoxşaxəli və nümunəvi əməkdaşlıq modeli yaradaraq beynəlxalq sistemdə ədalət və bərabərliyi möhkəmləndirmək üçün unikal imkanlara malikdir. Bu təşkilat böyük insan resursu, iqtisadi potensialı və zəngin mədəni müxtəlifliyi ilə təkcə regional platforma deyil, həm də qlobal təsir gücünə malik birlik kimi çıxış edə bilər.

İndoneziyanın Xarici İşlər Nazirliyinin çoxtərəfli məsələlər üzrə baş siyasi məsləhətçisi Agustaviano Sofjan D-8 Media Forumunun ilk dəfə Azərbaycanda keçirildiyi üçün məmnunluğunu ifadə edərək deyib: "Rəqəmsal platformaların inkişaf etdiyi dövrdə biz bu sahəyə ciddi şəkildə nəzarət yetirməliyik və öz töhfələrimizi verməliyik".

Onun sözlərinə görə, etik və müstəqil jurnalistika ictimaiyyətdə düzgün fikrin formalaşmasında mühüm rol oynayır. O, faktların yoxlanılmasının və dezinformasiyanın qarşısının alınmasının prioritet məsələlərdən biri olduğunu vurğulayıb.

İranın Xarici İşlər Nazirliyinin xarici media üzrə baş direktoru və sözçünün müavini Alireza Miryusefi Aval D-8 təşkilatının, ilk növbədə, iqtisadi əməkdaşlığı təşviq etmək məqsədilə yaradığını diqqətə çatdırıb: "Lakin bu gün biz hamımız yaxşı anlayırıq ki, üzərimizdə yalnız iqtisadi sahə ilə məhdudlaşmayan, daha geniş ölçülü məsuliyyət mövcuddur. Bu məsuliyyət, ilk növbədə, informasiya məkanında aydınlıq, şəffaflıq və etibarlılığın təmin edilməsindən ibarətdir. Bu isə hər bir ölkənin ictimai rifahına, regional sabitliyə və qlobal təhlükəsizliyə xidmət edən strateji hədəfdir".

Malayziya Milli Xəbər Agentliyinin (BERNAMA) baş direktoru Nur-ul Afida Kamaludin tədbirin dinamik inkişaf edən tarixi Bakı şəhərində keçirildiyini vurğulayaraq bu gün mədəniyyət, tarix və digər məsələlərdən danışarkən, əlaqələrimizin möhkəmlənməsində medianın ortaq dəyərlərimizi birləşdirən mühüm vasitə olduğunu söyləyib: "Medianın inkişafı həm birlik, həm də əməkdaşlıq baxımından xüsusi əhəmiyyət daşıyır. Bizim üçün etik davranış olduqca vacibdir və bu, medianı formalaşdıran amillərdən biridir".

Nigeriya Mətbuat Şurasının baş direktoru Dili Ezughah Azərbaycana ilk səfəri olduğunu və hava limanından tədbir məkanına qədər gördüyü mənzərənin onda böyük təəssürat yaratdığını deyib: "Bakı şəhərində inkişafın, modernləşmənin və tərəqqinin sürətli templə irəlilədiyini görmək çox sevindiricidir. Bu dinamizmi digər ölkələrdə də görməyi arzu edirəm".

O qeyd edib ki, D-8 Media Forumu olduqca böyük əhəmiyyət kəsb edən bir platformadır. Forum ölkələrimiz arasında mövcud olan dostluğun, əməkdaşlığın və qarşılıqlı etimadın bariz təzahürüdür. Dayanıqlı həllər isə hər bir ölkənin öz reallıqlarından irəli gəlir. Məhz buna görə də medianın inkişafı sahəsində əməkdaşlıq bizim üçün strateji önəm daşıyır.

Türkiyə Prezidentinin Rabitə, Strateji Rabitə və Böhran İdarəetmə İdarəsinin rəisi Bora Bayraktar bu gün ölkələrin hibrid təhdidlərlə üzləşdiyini söyləyib: "Süni intellektlə hazırlanan xəbərlərin sürətlə yayılması cəmiyyətin dövlət təsisatlarına inamına zərbə vura bilər".

Kommunikasiya sahəsində yeniliklərin olduğunu diqqətə çatdıran Bora Bayraktar mürəkkəb qlobal çağırışlar baxımından ölkələrin qarşısında yeni məsələlərin durduğunu bildirib.

Forum panel sessiyalarla davam edib.

## "Məsuliyyətli jurnalistika və rəqəmsal innovasiya"




**D-8 Media Forumu çərçivəsində "Məsuliyyətli jurnalistika və rəqəmsal innovasiya" mövzusuna həsr olunmuş panel sessiya təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, "AnewZ" beynəlxalq televiziya kanalının baş redaktor müavini Orxan Amaşovun moderatorluq etdiyi panel sessiyada müasir media mühitində məsuliyyətli informasiya istehsalı və rəqəmsal transformasiyanın yaratdığı imkanlar barədə müzakirələr aparılıb.

Banqladeş Mətbuat İnstitutunun baş direktoru Faruk Vasif Omar qeyd edib ki, ölkələr arasında əməkdaşlıq, təcrübə mübadiləsi və birgə texnoloji həllərin hazırlanması zəruridir. Biz real və saxta məzmunu ayırd edən sistemləri inkişaf etdirməli, süni intellektlə yaradılmış videoların aydın şəkildə etiketlənməsini təmin etməliyik. Bu həm ictimai etimadın qorunması, həm də məlumat təhlükəsizliyi üçün həyati əhəmiyyət daşıyır.

Misirin "Al-Ahram National Foundation" media qurumunun "Al-Ahram Weekly" və "Al-Ahram Online" nəşrlərinin baş redaktoru Ezzat İbrahim Azərbaycanın D-8 təşkilatına verdiyi önəmi yüksək qiymətləndirərək deyib: "Bu gün Media Mükəmməllik Mərkəzinin yaradılması isə xüsusilə təqdirəlayiq addımdır. Çünki ənənəvi media sisteminə rəhbərlik edən qurumlar bu gün çox ciddi bir çağırışla üzləşiblər. Süni intellekt sənayesinin sürətli inkişafı mövcud vəziyyəti tamamilə dəyişib. Artıq ənənəvi media orqanları əvvəlki kimi tək mənbə və ya əsas istiqamətverici rolunu asanlıqla qoruya bilmir. AI həm məzmun istehsalını sürətləndirir, həm məlumat axınını dəyişir, həm də müxtəlif platformalar vasitəsilə ənənəvi medianın təsir gücünü azaldır. Bu reallıq mediaya yeni yanaşmalar, yeni strategiyalar və yeni öyrənmə prosesləri tələb edir. D-8 çərçivəsində yaradılan mərkəz isə məhz bu çağırışlara kollektiv cavab vermək üçün böyük imkan yaradır".

İndoneziyadan rəqəmsal biznes və media innovasiyası üzrə ekspert Ferdian vurğulayıb ki, jurnalistlər süni intellekt əsaslı texnologiyalardan həddindən artıq asılı vəziyyətə düşə bilərlər. Bu isə peşəkar qərarvermənin, mənbəyi yoxlama mədəniyyətinin və redaksiya məsuliyyətinin zəifləməsinə səbəb ola bilər. "Süni intellekt bəzən həqiqi mənbələri şübhə altına ala və ya yanlış izahlar yarada bilər. Bu problem xüsusilə media sahəsində işləyənlərə daha aydın görünür, çünki onlar real məlumatın, faktların və etibarlı mənbələrin nə qədər vacib olduğunu dərindən bilirlər. Ancaq mühüm məsələ bu sahədə işləməyən geniş ictimaiyyətin düzgün məlumatlandırılmasıdır. Bu, hamımızın üzərinə düşən məsuliyyətdir. Media nümayəndələri, ekspertlər, dövlət qurumları və akademik dairələr birlikdə çalışaraq ictimaiyyət üçün maarifləndirici təlimlər, sadə izahlarla təqdim olunan məzmunlar və asan başa düşülən qaydalar hazırlamalıdır. İnsanlara süni intellektdən istifadə qaydaları, məlumatın doğruluğunu yoxlama üsulları və dezinformasiya ilə mübarizə üçün praktik metodlar izah edilməlidir", - deyə indoneziyalı ekspert vurğulayıb.

İranlı jurnalist, "Press TV"nin Beynəlxalq əlaqələr üzrə direktoru Elham Abedini isə bildirib ki, süni intellektlə bağlı etik aspektlər mütləq nəzərə alınmalıdır. Biz bu gün, əlbəttə, süni intellektdən geniş şəkildə istifadə edirik. Lakin, digər tərəfdən, qarşımızda çoxsaylı çağırışlar dayanır və onların ən əsası məhz etik məsələlərdir, faktların yoxlanılmasıdır. Çünki faktların hansısa məqsəd naminə dəyişdirilməsi və ya manipulyasiya olunması ciddi təhlükə yaradır. Məsuliyyətli jurnalistika isə bu baxımdan çox çətin, eyni zamanda olduqca vacib bir vəzifədir. "Media nümayəndələri, xəbər istehsalçıları və texnologiya qurumları etik prinsipləri qorumağı özünün əsas missiyası kimi qəbul etməlidirlər. Süni intellektdən istifadə bizi sürətləndirə bilər, lakin etika və faktların doğruluğu unudularsa, informasiya mühitinin bütövlüyü zərər görər", - deyə E.Abedini əlavə edib.

## "Strateji kommunikasiya və böhranın idarə olunması"




**Noyabrın 21-də D-8 Media Forumu çərçivəsində "Strateji kommunikasiya və böhranın idarə olunması" mövzusunda ikinci panel sessiya təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, Medianın İnkişafı Agentliyinin Müşahidə Şurasının üzvü Şəfəq Mehrəliyevanın moderatorluğu ilə keçirilən panel müzakirədə Malayziya Milli Xəbər Agentliyinin Kommersiya Departamentinin rəhbəri Mastura Hassan, Nigeriyanın informasiya və milli istiqamət nazirinin tədqiqat və strategiya üzrə köməkçisi Saidu Ahmed, Pakistan Televiziyasının rəhbəri Adil Şahzeb, Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin Strateji kommunikasiya və böhran idarəetməsi departamentinin rəhbəri, dosent Bora Bayraktar isə spiker qismində çıxış edərək dövlət qurumlarının kommunikasiya strategiyalarının yenilənən informasiya mühiti ilə uyğunlaşdırılması barədə fikirlərini bölüşüblər.

Panel sessiya zamanı iştirakçılar böhran vəziyyətlərində operativ, şəffaf və dəqiq məlumatlandırmanın ictimai etimadın qorunmasındakı rolunu vurğulayıblar. Müzakirələrdə rəsmi qurumların kommunikasiya fəaliyyətinin koordinasiyası, vahid informasiya axınının idarə olunması, sosial media platformalarında böhran kommunikasiya alətlərindən istifadə imkanları və informasiya risklərinin qiymətləndirilməsi kimi məsələlər geniş şəkildə təhlil edilib. Qeyd olunub ki, sürətlə dəyişən informasiya mühiti şəraitində ictimaiyyətlə sistemli kommunikasiya strategiyasının qurulması zəruridir, bu baxımdan, üzv ölkələr arasında təcrübə mübadiləsi və birgə metodoloji çərçivələrin hazırlanması mühüm əhəmiyyət daşıyır.

Proqram çərçivəsində media və kommunikasiya üzrə beynəlxalq ekspert Tiffany J. Bell tərəfindən "Rəqəmsallaşan dünyada media etikası: Texnologiyalar, trendlər və narrativlər" mövzusunda vörkşop keçirilib. Vörkşop zamanı media etikasının yeni texnoloji reallıqlarda qarşılaşdığı çağırışlar, rəqəmsal platformalarda məsuliyyətli davranış qaydaları və innovativ kommunikasiya tendensiyaları haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, forumda 8 ölkədən və Təşkilatın Katibliyindən 71 xarici nümayəndə olmaqla, ümumilikdə 150-yə yaxın qonaq iştirak edib.

# D-8 Media Forumunda Bakı Bəyannaməsi qəbul olunub

Bakıda keçirilən "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunda üzv dövlətlər arasında media sahəsində birgə inkişaf və əməkdaşlıq ilə bağlı Bakı Bəyannaməsi imzalanıb.

AZƏRTAC bəyannamənin mətnini təqdim edir.

"Biz - İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) üzvlərinin - Azərbaycan Respublikasının, Banqladeş Xalq Respublikasının, Misir Ərəb Respublikasının, İndoneziya Respublikasının, İran İslam Respublikasının, Malayziyanın, Nigeriya Federativ Respublikasının, Pakistan İslam Respublikasının və Türkiyə Respublikasının hökumətləri və media nümayəndələri 2025-ci il noyabrın 21-də "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda keçirilən birinci D-8 Media Forumu üçün Azərbaycanın Bakı şəhərində görüşdük.

Biz D-8-in gücləndirilməsinə, onun daha dinamik, nüfuzlu iqtisadi blok kimi inkişaf etdirməyə yönəlmiş liderliyinə və dəyərli töhfələrinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Biz həmçinin D-8-in bütün üzv dövlətlərinin, xüsusilə informasiya nazirliklərinin, milli media orqanlarının və media agentliklərinin forumun işinə verdikləri fəal və dəyərli töhfələri yüksək qiymətləndiririk.

D-8-in prinsiplərini bir daha təsdiqləyərək və inkişaf edən qlobal media mühitində daha fəal əməkdaşlığın getdikcə artan əhəmiyyətini anlayaraq, aşağıdakıları bəyan edirik:

Qarşılıqlı anlaşmanı, regional həmrəyliyi və ortaq inkişaf məqsədlərini təşviq etmək üçün D-8-in üzv dövlətləri arasında media sahəsində əməkdaşlığı gücləndirməyə sadiqliyimizi bir daha vurğulayırıq.

D-8 Media Forumunun inklüzivliyi və ortaq məsuliyyəti təmin etmək üçün D-8 üzv dövlətləri tərəfindən təşkil olunan bir platforma kimi institutlaşdırılması təklifini qəbul edirik.

Bütün üzv dövlətlərin fəal iştirakı ilə təlim, tədqiqat, innovasiya, rəqəmsal bacarıqların inkişafı və əlaqələndirilmiş kommunikasiya təşəbbüsləri üçün Azərbaycan tərəfindən təşkil olunacaq D-8 Media Mükəmməlliyi Mərkəzinin ən tez zamanda fəaliyyətə başlamasına çağırış edirik.

D-8-in üzv dövlətlərdə institusional və insan resursları imkanlarını gücləndirmək üçün D-8 Media Mükəmməlliyi Mərkəzi vasitəsilə strukturlaşdırılmış potensialın artırılması proqramları, seminarlar və peşəkar mübadilələrin inkişaf etdirilməsi.

İnformasiya mübadiləsini möhkəmləndirmək, strategiyaları uyğunlaşdırmaq və birgə məzmunla bağlı təşəbbüsləri dəstəkləmək üçün milli media orqanları, xəbər agentlikləri və ictimai yayımçılar arasında əməkdaşlığın gücləndirilməsi.

Proqram mübadiləsi, birgə istehsal, həmçinin mədəniyyət və təhsil sahəsi ilə bağlı məzmunun paylaşılmasını asanlaşdırmaq üçün D-8 Ölkələrinin Yayım Assosiasiyasının yaradılması təşəbbüsünün nəzərə alınması.

D-8-in birgə istehsal və ölkələrarası məlumatların yayılması üçün D-8 rəqəmsal platformaların yaradılmasının təşviq edilməsi və bununla da qlobal miqyasda D-8-lə bağlı məlumatların ictimaiyyətə çatdırılmasının təmin olunması.

Paylaşılan fakt yoxlama mexanizmləri, ortaq yoxlama vasitələri və sürətli kommunikasiya kanalları vasitəsilə yanlış məlumatlandırma, dezinformasiya və nifrət nitqinə qarşı mübarizə aparmaq məqsədilə əlaqələndirilmiş səylərin təşviqi.

Zərərli rəqəmsal məzmuna və qarşıya çıxan risklərə qarşı kollektiv dayanıqlığın təmin edilməsi üçün beynəlxalq media təşkilatları, tədqiqat qurumları və qlobal kommunikasiya şəbəkələri ilə tərəfdaşlığın gücləndirilməsi.

Jurnalistikanın etik standartlarının təmin olunması və bütün media formatlarında peşəkarlığı, məsuliyyəti və dəqiqliyi özündə ehtiva edən vahid D-8 davranış kodeksinin hazırlanmasının dəstəklənməsi.

Üzv dövlətlərdə rəqəmsal baxımdan məlumatlı vətəndaşlığı və daha təhlükəsiz onlayn mühiti təşviq etmək məqsədilə xüsusilə gənclər və müəllimlər üçün media savadlılığı təşəbbüslərinin inkişaf etdirilməsi.

Media texnologiyalarında məsuliyyətli innovasiyanı, həmçinin məzmun yaradılması, yoxlanılması və idarə olunmasında süni intellektdən şəffaf və etik istifadənin təmin edilməsinin dəstəklənməsi.

Jurnalistika institutları və məktəbləri arasında əməkdaşlığın gücləndirilməsi, təqaüdlərin, akademik mübadilələrin və jurnalistlər üçün peşəkar inkişafın təşviq edilməsi.

D-8 Media Mükəmməlliyi Mərkəzinin Azərbaycandakı rəhbərliyi ilə sıx əməkdaşlıq etməyə hazır olduğumuzu bildirir və onun səmərəli fəaliyyətini dəstəkləmək, ortaq prioritetlərin həyata keçirilməsinə dəstək vermək və D-8-in bütün üzv dövlətlərində media sahəsində əməkdaşlığın gücləndirilməsini inkişaf etdirmək üçün kollektiv öhdəliyimizi bir daha vurğulayırıq.

Biz inanırıq ki, bu bəyannamənin səmərəli şəkildə həyata keçirilməsi daha sıx qarşılıqlı əlaqəli, məlumatlandırılmış və davamlı D-8 media məkanına töhfə verəcək, bu da ölkələrimiz arasında sülhü, inkişafı və qarşılıqlı anlaşmanı dəstəkləyəcək.

İlk dəfə təşkil olunan D-8 Media Forumunun uğurla keçirilməsi üçün yüksək səviyyədə həyata keçirilən tədbirlərə görə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə minnətdarlığımızı bildiririk.

Bəyannamə 2025-ci il noyabrın 21-də Azərbaycan Respublikasının Bakı şəhərində qəbul edilib".

# Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva Lənkəranda ekoloji aksiyalarda olublar

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Lənkərana səfər çərçivəsində bir sıra ekoloji aksiyalarda iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə IDEA İctimai Birliyi tərəfindən Lənkəran rayonunda meşə ərazisində "Yaşıl Marafon" çərçivəsində ağacəkmə aksiyası təşkil olunub. Könüllülərin iştirakı ilə həyata keçirilən aksiyada 1350 ədəd Eldar şamı tingi əkilib. Tədbir zamanı yaşıllıq zolaqlarının genişləndirilməsi, meşə fondunun bərpası və ekosistemin mühafizəsi istiqamətində reallaşdırılan işlər barədə məlumat verilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika Yaşıllaşdırma Marafonu"nun ("Yaşıl Marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir. "Yaşıl Marafon" çərçivəsində 2025-ci ilin payız və 2026-cı ilin yaz əkin mövsümləri ərzində ölkə üzrə 2 milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

Daha sonra Hirkan Milli Parkının ərazisinə biomüxtəlifliyin zənginləşdirilməsi məqsədilə heyvanların təbiətə buraxılması aksiyası təşkil olunub. Aksiya çərçivəsində 2 yenot, 2 tülkü və 4 tirəndaz təbii mühitə buraxılıb. Yenotlar bir müddət əvvəl IDEA İctimai Birliyinin təşəbbüsü və aidiyyəti qurumların iştirakı ilə aparılan birgə yoxlama nəticəsində iaşə obyektlərində qanunsuz saxlanılması aşkarlanmış və xilas edilmişdilər. Həmin yenotlar 4 ay müddətində Bakı Zooloji Parkında müalicə və reabilitasiya olunaraq tam sağaldıqdan sonra təbiətə qaytarılıb.







Təbiətə qaytarılan tülkülər isə vətəndaşlar tərəfindən yaralı halda aşkarlanaraq Bakı Zooloji Parkına təhvil verilmişdi. Onlar Zooloji Parkda bir il müddətində klinik şəraitdə müayinə və müalicə olunub, reabilitasiya prosesi uğurla başa çatdıqdan sonra təbii mühitə buraxılıb.

Aksiyada təbiətə buraxılan tirəndazlar vaxtilə Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmiş növlərdən olub. Ölkəmizdə bu sahədə həyata keçirilən uğurlu mühafizə tədbirləri nəticəsində bu vəhşi heyvanların sayı artırılıb və növ "Qırmızı kitab"dan çıxarılıb. Milli Parka buraxılan tirəndazlar Bakı Zooloji Parkında çoxaldılan və təbii populyasiyası bərpa olunan fərdlərdəndir.

Qeyd edək ki, sözügedən ekoloji aksiyalar IDEA İctimai Birliyi tərəfindən Azərbaycanda ətraf-mühitin mühafizəsi və biomüxtəlifliyin qorunması istiqamətində mütəmadi olaraq görülən işlərin tərkib hissəsidir.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Lənkəranda internat məktəbində olub

**Noyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva Lənkəran şəhəri Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində olublar.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə məktəbin şagird və müəllimləri ilə birlikdə tarixi Zəfərin 5 illiyinə həsr olunmuş əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Sonra sinif otaqlarında, məşğələ və istirahət otağında uşaqların asudə vaxtının səmərəli təşkili prosesləri izlənilib.

Qeyd edək ki, regional xarakter daşıyan və cənub bölgəsində yeganə olan sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəbində autizm və daun sindromlu, o cümlədən əqli inkişafdan geri qalan uşaqların mütəxəssislər tərəfindən





həm təhsil almaları, həm də reabilitasiya prosesi təmin edilir. Həmin uşaqların məktəbdə qalması üçün də şərait yaradılıb ki, 34 uşaq bu imkandan yararlanır.

# Heydər Əliyev Fondu Lənkəranda uşaq evini əsaslı yenidənqurmadan sonra istifadəyə verib

**Lənkəran şəhər Osman Mirzəyev adına 5 saylı uşaq evi sosial xidmət müəssisəsinin yerləşdiyi bina Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilib. Noyabrın 21-də uşaq evinin binasının təmirdən sonra açılışı olub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Bildirilib ki, Lənkəranda 1941-ci ildən fəaliyyət göstərən 5 saylı uşaq evi sosial xidmət müəssisəsinin binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü. 2024-cü ildə uşaq evi sosial xidmət müəssisəsinin binasının əsaslı təmir işlərinə başlanılıb.

Bina 1 və 2 mərtəbəli 5 korpusdan ibarətdir. Sosial xidmət müəssisəsində kiçik və böyük yaş qrupları üzrə 120 uşaq yerləşib. Binada sinif, informatika, tikiş və xalçaçılıq, rəqs və musiqi otaqları, emalatxana yaradılıb. Sosial xidmət müəssisəsi zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri əyani vəsaitlərlə təchiz edilib.

Burada istirahət və tibb otaqları, qarderob, kitabxana, oxu zalı, yeməkxana, akt zalı, idman zalı və açıq idman meydançası yaradılıb. Eləcə də oyun attraksionları ilə təmin olunan mey-





dança inşa edilib. Sosial xidmət müəssisəsinin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

# Leyla Əliyeva və Arzu Əliyeva Astarada Pəncəli Teymurovun ailəsini ziyarət ediblər

**Noyabrın 21-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva Astarada Azərbaycanın Milli Qəhrəmanı Pəncəli Teymurovun ailəsini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, görüş zamanı Aprel döyüşlərində şəhid olmuş Pəncəli Teymurovun xatirəsi ehtiramla yad edilib, onun Vətən uğrunda xidmətləri, hərbçi kimi yüksək peşəkarlıq, şücaət və mərdlik göstərməsi barədə danışılıb.

Daha sonra Leyla Əliyeva və Arzu Əliyeva şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılan ev-muzeyinə baxış keçiriblər.

Qeyd edək ki, Xüsusi Təyinatlı Qüvvələrin mənsubu, "Qoca" ləqəbli əfsanəvi kəşfiyyatçı Pəncəli Nurməhəmməd oğlu Teymurov 1981-ci



il martın 24-də Astara rayonunun Əzərüd kəndində anadan olub. Hərbi xidmətdən sonra 1999-cu ildən Xüsusi Təyinatlı Qüvvələr yarandığı ildən onun sıralarında xidmətini davam etdirən Pəncəli 17 il Vətənin keşiyində şərəflə dayanıb. Gizir Pəncəli Teymurov 2016-cı il Aprel döyüşləri zamanı arzuladığı zirvəyə - şəhidlik məqamına ucalıb.

Nümunəvi xidməti ilə sağlığında bir çox medallara və mükafatlara layiq görülən Pəncəli Teymurov ölümündən sonra 2016-cı ildə "Vətən uğrunda" medalı ilə təltif olunub. Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin 2025-ci il noyabrın 7-də imzaladığı sərəncamla Pəncəli Teymurova Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

# ANİMAFİLM festivalı

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alena Əliyeva Lənkəranda bir sıra tədbirlərdə iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində əvvəlcə Leyla Əliyeva və Alena Əliyeva Lənkəran şəhər Mədəniyyət Mərkəzində Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə keçirilən "ANİMAFİLM Lənkəranda" animasiya filmləri festivalında iştirak ediblər. Festivalda "Tarix", "Həmişəyaşıl", "Narqız", "Pulun dili", "Soyuz Qraviton", "Yer və Ay" və "Bum-bum" filmləri nümayiş olunub.

Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev bildirib ki, ilk dəfə geniş auditoriya qarşısında təqdim edilən "Bum-bum" filmi görkəmli Azərbaycan yazarı, Xalq şairi Vaqif Səmədoğlunun eyniadlı poemasının motivləri əsasında hazırlanıb, "Yer və Ay" qısametrajlı animasiya filmi isə Azərbaycan və Öz-





bəkistan animasiya ustalarının birgə istehsalıdır. Nümayişdə iştirak edən Lənkəran rayonunun məktəbəqədər təhsil müəssisələrində çalışan müəllimlər və təhsil alan şagirdlər animasiya filmlərini böyük maraq və müsbət əhvali-ruhiyyə ilə izləyiblər.

Qeyd edək ki, uşaqlara, onların təhsili və inkişafına xüsusi diqqəti ilə seçilən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən bu tədbir Azərbaycan animasiya sənətinin azyaşlılar arasında təbliği baxımından böyük əhəmiyyət daşıyır.

# Bakının sülh səyləri praktik müstəvidə də öz təsdiqini tapır

**Azərbaycanın yekunda sülh qazandıran qətiyyətli siyasi yolu onu tamamilə yeni bir dövrə gətirib çıxarıb. Elə bir dövrə ki qüdrəti də, nüfuzu da Cənubi Qafqaz sərhədlərini aşaraq dünyaya yayılıb. Müharibədə qələbə çalan, işğala son qoyan, suverenliyini tam təmin edən ölkə olaraq adını müasir dünya tarixinə yazdıran Azərbaycanın silsilə qalibiyyətləri regionda de-fakto sülhü də bərqərar edib.**



Təsadüfi deyil ki, indi qlobal sülhlə bağlı keçirilən sammitlərdə tərəqqi vəd edən sülh mühiti formalaşdırılmış regionumuz misal çəkilir, nümunə göstərilir. Dünyanın istənilən ölkəsi Azərbaycanın ortaya qoyduğu unikal sülh modelini təqdir edir.

### Barışın açarı

Güc mərkəzlərinin Cənubi Qafqazla bağlı mərhələ-mərhələ həyata keçirdikləri siyasi planlar sayəsində bu ərazi xüsusilə 1988-ci ildən sonra həlli mümkünsüz görünən münaqişə bölgəsinə çevrilmişdi. Onilliklər boyu qaranlığa qərq olan və sülhə gedən işıqlı yolları, əslində, missiyası sülh yaratmaq olan ATƏT-in keçmiş Minsk qrupu kimi ikilistandartlı qurumların əlləri ilə qəsdən qapadılan bölgənin potensial müharibə-münaqişə ocağı kimi qalması düşünülmüşdü. Lakin Azərbaycanın heç zaman işğal faktı ilə barışmaması, istər Ulu Öndər Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin mötəbər tribunalardan daim haqq səsimizi dünyaya çatdırması Qarabağ məsələsinin beynəlxalq gündəmdən düşürülməsinə imkan vermədi.

Ötən illərdə Ermənistanın işğalçı siyasətinin dünya miqyasında ifşası üçün mühüm işlər görüldü. Münaqişənin danışıqlar yolu ilə həllinin nəticəsiz olmasına rəğmən ölkəmiz ərazilərinin işğal altından qurtulması üçün siyasi-diplomatik və digər sahələrdə əhatəli iş apardı.

20 sentyabr 2017-ci ildə Prezident İlham Əliyev Nyu Yorkda BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxışında demişdi: "Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, o buna görə cəzalandırılmır. Bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə 24 ildir ki, qətnamələr icra olunmur. Bu, ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbuledilməzdir. Ermənistana qarşı beynəlxalq sanksiyalar qəbul edilməlidir".

Azərbaycan Prezidentinin tarixi çıxışının üzərindən cəmi üç il keçdikdən sonra ölkəmiz BMT TŞ-nin onilliklər boyu beynəlxalq ictimaiyyət tərəfindən icrasına məhəl qoyulmayan dörd qətnaməsinin hərb yolu ilə yerinə yetirilməsini təmin etdi. Bunun nəticəsində açılan Qarabağ düyünü Cənubi Qafqazda sülhün qapısının açarı rolunu oynadı.

Cari il 8 avqust tarixli Vaşinqton görüşündə bölgədə davamlı normallaşmanın təməlləri atıldı, əldə edilən mühüm razılaşmalar regiona uzunmüddətli inkişaf üçün yeni səhifələr açdı.

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın normallaşma istiqamətində atdığı addımlar, bu prosesə verdiyi əməli töhfələr hazırda bölgədə müşahidə olunan faktiki sülhün səbəbidir. Bütün əldə olunan bu uğurlar isə təkcə Cənubi Qafqazın inkişafı ilə məhdudlaşmır, daha geniş coğrafiyaya hərtərəfli əlaqələr və əməkdaşlıq üçün mühüm zəmin formalaşdırır.

### Etimad quruculuğu

Bu il avqustun 8-də Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə əldə olunan razılaşmalardan biri də Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi üçün Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi ilə bağlıdır. Orta dəhlizin mühüm halqasına çevriləcək TRIPP beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə böyük töhfə verəcək.

Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev iştirakçılara məlumat verdi ki, Azərbaycanda Zəngəzur dəhlizinin (TRIPP) tikintisi başa çatmaq üzrədir. İlkin mərhələdə 15 milyon ton yükdaşıma qabiliyyətinə malik bu dəmir yolu Orta dəhlizin əsas arteriyasına çevriləcək. Həmçinin Zəngəzur dəhlizinin (TRIPP) bir hissəsi olacaq avtomagistralın tikintisi də başa çatmaq üzrədir.

Ermənistanın konstitusiyası dəyişdirilərək ölkəmizə qarşı ərazi iddiası ortadan qaldırılandan sonra isə sülh müqaviləsinin imzalanması yolunda heç bir maneə qalmayacaq və istənilən tarixdə ona imza atılacaq.

Onu da vurğulayaq ki, regionda dayanıqlı sülhün əldə olunması üçün proseslər sadəcə siyasi müstəvidə aparılmır, barışın əsas şərtlərindən olan qarşılıqlı etimad quruculuğu istiqamətində də işlər görülür.

Artıq Azərbaycan və Ermənistan vətəndaş cəmiyyəti nümayəndələri heç bir vasitəçi olmadan görüşlər keçirirlər. Bu isə tərəflər arasında qarşılıqlı etimad mühitinin formalaşdırılması baxımından mühüm hadisədir. Bu həm də iki ölkə arasında normallaşma istiqamətində aparılan danışıqların ictimai səviyyədə də dəstəklənməsini ortaya qoyur.

Mühüm məsələlərdən biri də Azərbaycanın Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranzit məhdudiyyətlərini aradan qaldırması ilə bağlıdır. Yəni işğal siyasəti nəticəsində onilliklər boyu dalan ölkəyə çevrilən Ermənistan artıq Azərbaycanın sayəsində "nəfəs" almağa başlayıb.

Bütün bunlar uzun illər münaqişə içərisində olan ölkələrin artıq normallaşma ilə bağlı müəyyən irəliləyişlər əldə etdiklərinə nümunələrdir. Amma hələ qarşıda qət ediləsi yol çoxdur. Çünki cəmiyyətlərin sülhə hazırlanması və vətəndaşlar arasında ünsiyyətin qurulması ilə etimad mühitinin möhkəmləndirilməsi çox həssas və zaman tələb edən məsələdir. Bu sahədə atılan davamlı addımlar, heç şübhəsiz, təkanverici rol oynayacaqdır.

2020-ci və 2023-cü illərdə qazandığı ardıcıl hərbi-siyasi-diplomatik qələbələrindən sonra yaranan yeni geosiyasi reallıqların fonunda ölkəmizin sülh və etimad quruculuğu prosesi istiqamətində reallaşdırdığı əməli işlər, coğrafiyamızda dayanıqlı sülh və əməkdaşlığın bərqərar olması üçün göstərdiyi səylər özünü qabarıq büruzə verir.

Bir sözlə, Cənubi Qafqazda proseslər Azərbaycanın yazdığı barış ssenarisi üzrə inkişaf edərək məntiqi sonluğuna, yəni davamlı sülhə doğru gedir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanla sülh və əməkdaşlıq Ermənistanın tərəqqisinin yeganə direktividir

**Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığında Azərbaycan Respublikasının Vətən müharibəsi və antiterror tədbirlərində yaratdığı yeni geosiyasi konfiqurasiyanın nəticəsi kimi meydana çıxan və dövlət başçısının təşəbbüsləri üzərində bərqərar olan sülh prosesi Vaşinqton görüşündən sonra tam yeni mərhələyə qədəm qoyub.**



İlk vaxtlar Ermənistan ölkə daxilindəki revanşist kəsimin və hələ də milli ideoloji əsas kimi beyinlərə həkk olunan miflərin təsiri altında sülh reallığının əhəmiyyətini dərk edə bilməsə də, proseslərin gedişatında, xüsusən Azərbaycanın antiterror tədbirlərində böyük qələbəsinin ardınca, habelə Ermənistanın havadarı kimi çıxış edən dövlətlərin zamanla ölkəmizin artan nüfuzu və Prezident İlham Əliyevin qətiyyəti hesabına öz mövqelərindən geri çəkilməsi İrəvanı prosesə bir daha baxmağa məcbur edib, nəticə etibarilə 3 illik gecikmənin ardınca regionda de-fakto sülh bərqərar olub.

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, Ermənistanın əvvəlki dövrlərdə nümayiş etdirdiyi yersiz "mühafizəkar" davranışının əvəzinə son vaxtlar, xüsusən Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair Sazişin paraflanmasından ötən dövr ərzində daha praqmatik və həlyönümlü mövqeyi ümidverici siqnallar kimi qəbul oluna bilər: "Nəticə etibarilə artıq 2 ildən çoxdur ki, Azərbaycan və Ermənistanın sərhədlərində, habelə şərti sərhədləri boyu silah səsləri eşidilmir, sülh və etimad quruculuğu istiqamətində önəmli addımlar atılması üçün iradə nümayiş etdirilir. Azərbaycan Respublikası öz ərazisindən Ermənistana yüklərin daşınmasına dair tətbiq edilən tranzit məhdudiyyətini artıq aradan qaldırıb, ölkələrin hava məkanları qarşılıqlı olaraq açılıb, habelə sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində Qazaxın 4 kəndinin hərbi müdaxilə olmadan geri qaytarılması təmin olunub, o cümlədən qarşılıqlı səfərlər formatı da daxil olmaqla, vətəndaş cəmiyyəti institutları arasında təmaslar yolu ilə etimad quruculuğu prosesinə start verilib".

Deputat qeyd edib ki, 30 il ərzində davam etmiş qanlı müharibə, o cümlədən Ermənistanın Azərbaycan dövlətinə və xalqına qarşı törətdiyi çoxsaylı cinayətlər fonunda etimad quruculuğu istiqamətində addımların atılması, o cümlədən xalqların tam mənada barışığına nail olunması kifayət qədər zaman aparacaq məsələdir. Bu mənada sadalanan ilkin nəticələr göründüyündən daha çox əhəmiyyətə malik proseslər sayılmalıdır: "Əlbəttə, aidiyyəti istiqamətlərdə əldə olunan uğurlar tarixin təbii axarında reallaşan proseslər deyil və arxasında Azərbaycanın böyük zəfəri ilə ədalətin və beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin aliliyinin bərqərar edilməsində ehtiva olunan Prezident İlham Əliyevin qətiyyəti hesabına ərsəyə gələn format dayanır. Daha dəqiq desək, Azərbaycanın Vətən müharibəsində və antiterror tədbirlərində qazandığı böyük zəfər eyni zamanda Ermənistanın sülhə məcbur edilməsi istiqamətində həlledici amil kimi çıxış edib. Məhz bu qələbə hesabına "Qarabağ Ermənistandır" deyən bu ölkənin Baş naziri reallıqları qəbul etməyə, Azərbaycanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığını tanımağa, habelə separatizmlə bağlı nisbi arzuolunan bəyanatlar verməyə başlayıb.

B.Məhərrəmov bildirib ki, bu gün Azərbaycan və Ermənistan arasında dayanıqlı, davamlı və ədalətli sülhün bərqərar olunmasına münaqişə tarixinin istənilən dövründən daha yaxınıq və yeni reallıqda artıq Bakı və İrəvan yekun sülhün əldə olunması, dövlətlər arasında normal münasibətlərin yaranması, habelə qarşılıqlı etimad mühitinin formalaşması, ticari, iqtisadi əlaqələrin, diplomatik münasibətlərin qurulması istiqamətində müəyyən yol xəritəsi formalaşdıra biliblər: "Təbii ki, yekun sülhün əldə olunması və de-fakto sülhün de-yure mərhələsinin tamamlanması istiqamətində əsas əngəllərdən biri kimi çıxış edən Ermənistan konstitusiyasındakı Azərbaycana qarşı ərazi iddialarının hələ də qüvvədə olması prosesdə nikbinliyi azaldır. Xüsusən seçkilərə hazırlaşan Ermənistan cəmiyyətində hələ də revanşist dairələrin nüfuz və imkan sahibi olduğu şəraitdə bu ölkə rəhbərliyinin konstitusiya islahatları barədə çıxışlarında ehtiyatlı davranacağı gözlənilən idi. Lakin Azərbaycana yönəlik iddianın Ermənistanın daxili məsələsi ola bilməyəcəyi üçün rəsmi Bakı haqlı olaraq sülh qarşısında əngələ çevrilmiş bu problemin Ermənistanın daxili siyasi problemlərinə alət edilməsini doğru hesab etmir. Müharibədən dərhal sonra özünün sülh təşəbbüsləri ilə, habelə sonrakı dövrdə hər hansı formada eskalasiyaya yol verməməklə, həmçinin Azərbaycanın hava məkanının Ermənistan təyyarələri üçün açılması, bu ölkəyə yükdaşımalarla bağlı tranzit məhdudiyyətinin ləğv edilməsi formatlarında Prezident İlham Əliyevin nümayiş etdirdiyi xoş niyyət fonunda proseslərin hər hansı aspektdən ləngiməsi bizim üçün yolverilməz, Ermənistan üçün isə həm də arzuolunmazdır".

Deputat vurğulayıb ki, Azərbaycanın zamanında reallaşdırdığı çoxsaylı layihələr, o cümlədən hərbi-siyasi zəfərlərimizlə yaranan yeni geosiyasi reallıqda artan güc və imkanlarımız, ölkəmizin Orta dəhlizin aparıcı aktorlarından biri kimi çıxış etməsi və Azərbaycan coğrafiyasının önəmli ticarət-nəqliyyat habına çevrilməsi, əslində, sülhün imzalanacağı təqdirdə Ermənistan üçün də tarixi fürsətə çevrilə bilər. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasının tamhüquqlu üzvü olması fonunda ölkəmizin Mərkəzi Asiya ilə vahid geosiyasi məkan kimi çıxış etməsi, iştirakçı dövlətlərin Azərbaycanı Orta dəhlizin ən vacib və etibarlı seqmenti kimi qiymətləndirməsi fonunda ölkəmizlə sağlam əməkdaşlıq dalan dövlət statusundan Ermənistanın qurtulması üçün tarixi imkandır. Yəni Ermənistanın 30 ildən artıq müddətdə davam etdirdiyi işğalın heç bir iqtisadi səmərəsi olmayan, əksinə, geosiyasi zərərlərə gətirib çıxaran nəticələrindən fərqli olaraq, Azərbaycanla sülh və əməkdaşlıq Ermənistanın inkişaf və tərəqqisinin yeganə direktivi kimi çıxış edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qlobal media mühiti sürətli transformasiya dövrü yaşayır

## D-8 Media Forumunun ölkəmizdə keçirilməsi Azərbaycanın bu sahəyə yüksək diqqət və qayğı göstərdiyinin bariz nümunəsidir

**"D-8 Media Forumunun Azərbaycanda keçirilməsi böyük əhəmiyyətə malikdir. Azərbaycan bu günə qədər bir çox yerli və beynəlxalq tədbirin uğurlu təşkilatçısı kimi dünyada tanınıb. D-8 kimi mühüm quruma üzv ölkələrin media forumunun ölkəmizdə baş tutması Azərbaycanın həm də media sferasında ortaq layihələr həyata keçirməkdə maraqlı olduğunun göstəricisidir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Azxeber.com" informasiya portalının baş redaktoru Hacıbəy Heydərli deyib. O bildirib ki, D-8-ə üzv olan ölkələrin 1,2 milyard nəfərə yaxın əhalisi var və dünyanın geniş coğrafiyasını birləşdirən təşkilatdır. Eyni zamanda qlobal çağırışlarla bağlı media forumunun keçirilməsi göstərir ki, Azərbaycan digər sahələrdə olduğu kimi, bu sahədə də dünyada baş verən qlobal dəyişikliklərə önəm verir. Prezident İlham Əliyevin forum iştirakçılarına ünvanladığı müraciətində qeyd etdiyi istiqamətlər çox vacibdir. "Xüsusən dezinformasiyaya qarşı mübarizə, feyk nyuslar, dipfeyk tipli məlumatların yayımlanması, bundan başqa, süni intellektlə bağlı ortaq layihənin həyata keçirilməsi günümüzdə mühüm əhəmiyyətə malikdir. Bu baxımdan forumun ölkəmizdə keçirilməsi Azərbaycanın yalnız iqtisadi, enerji, siyasi deyil, həmçinin media sahəsində təşkilata üzv ölkələrlə ortaq layihələrdə maraqlı olduğunun bariz göstəricisidir", - deyə o əlavə edib.

H.Heydərli qeyd edib ki, forumun panellərində dünyada media ilə bağlı məsələlərin müzakirəsi onu göstərir ki, Azərbaycan növbəti mərhələlərdə D-8-ə üzv ölkələrlə həm də media sahəsində əməkdaşlığı gücləndirəcək. Azərbaycan jurnalistləri üçün də bu forum bir "yol xəritəsi" olacaq. Təşkilata üzv ölkələrin bu sahədə fəaliyyət göstərən media qurumları ilə əlaqələrin qurulması çox önəmlidir. Sosial mediada gündən-günə artan dezinformasiyaların, saxta videoların qarşısının alınmasında həmin ölkələrin təcrübəsindən də istifadə etmək olar. Əslində, forum çərçivəsində həyata keçirilən "workshop"lar da buna istiqamətlənib. Azərbaycan jurnalistləri bu kimi istiqamətlərdə daha fəal şəkildə iş görə bilərlər.

Baş redaktor deyib ki, D-8 Media Forumunda qarşıya qoyulan əsas məqsəd üzv ölkələrin hər birində doğru, qərəzsiz, obyektiv məlumatların cəmiyyətə çatdırılması, eyni zamanda bu ölkələrin dezinformasiyaya qarşı birgə mübarizəsi prioritet istiqamətlərdir.

H.Heydərli düşünür ki, Azərbaycan jurnalistləri bu sahədə təcrübələrini də üzv ölkələrin nümayəndələri ilə bölüşəcəklər: "Növbəti mərhələlərdə qlobal dəyişiklik fonunda Azərbaycanın da bu prosesə töhfə verdiyinin şahidi olacağıq. Əslində, ilk media forumunun ölkəmizdə keçirilməsi Azərbaycanın bu sahəyə nə qədər diqqət və qayğı göstərdiyinin bariz nümunəsidir. Hazırda qlobal media mühiti sürətli transformasiya dövrü yaşayır. İnformasiyanın istehsalı və yayılması sahəsində texnologiyanın inkişafı imkanlarla yanaşı, risklər də formalaşdırır. Prezident İlham Əliyevin ünvanladığı müraciətdə də əsas risklər önə çəkilib".

O vurğulayıb ki, son illərdə yayılan yalan məlumatlar, saxta xəbərlər, dipfeyk texnologiyaları və süni intellektdən sui-istifadə halları dünyada ciddi narahatlıq doğurur. Bu proseslər ölkələrin imicinə, daxili ictimai-siyasi sabitliyinə və beynəlxalq münasibətlərdə etimad mühitinə mənfi təsir göstərir. Nəticə etibarilə informasiya məkanında qeyri-müəyyənlik artır, cəmiyyət arasında çaşqınlıq yaranır, bütövlükdə qlobal təhlükəsizlik mühiti zəifləyir. Məhz buna görə də D-8 Media Forumunun qarşısında duran əsas vəzifələrdən biri doğru, qərəzsiz, məsuliyyətli informasiya mühitinin formalaşmasıdır.



H.Heydərli qeyd edib ki, üzv ölkələrin media qurumları arasında etibarlı əməkdaşlığın gücləndirilməsi dezinformasiyaya qarşı birgə mübarizənin ən effektiv yollarından biridir: "Bu əməkdaşlıq həm regionda, həm də qlobal səviyyədə daha sabit və şəffaf media ekosisteminin qurulmasına mühüm töhfə verə bilər. Növbəti illərdə forumun, verilən qərarların əhəmiyyətini üzv ölkələrin cəmiyyətlərinin fəaliyyətində aydın şəkildə görəcəyik. Bundan sonra digər üzv ölkələrdə keçirilən media forumlarında Azərbaycan jurnalistlərinin, media nümayəndələrinin də iştirakı gözlənilir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Hərbi attaşelər Milli Aviasiya Akademiyasını ziyarət ediblər

**Cari ilin fəaliyyət planına əsasən, ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri üçün Milli Aviasiya Akademiyasına ziyarət təşkil edilib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, ziyarətdə 14 ölkənin hərbi attaşelik aparatının 17 nümayəndəsi iştirak edib.

Əvvəlcə qonaqlara Milli Aviasiya Akademiyasının yaranma tarixi, inkişaf mərhələləri, strukturu və fəaliyyəti barədə ətraflı məlumatlar verilib. Qeyd olunub ki, ötən əsrin sonlarından fəaliyyətə başlayan Milli Aviasiya Akademiyası ölkəmizin mülki aviasiya sahəsinin ixtisaslı kadrlarla təminatında mühüm rol oynayır. Akademiyada bu gün bakalavriat və magistratura səviyyələrində 3 mindən çox tələbə təhsil alır.



Qonaqlara təhsil ocağında aviasiya sahəsində böyük təcrübəyə malik peşəkar pilotların, dispetçerlərin, mühəndislərin və ixtisaslaşmış mütəxəssislərin tədris və təlimlərdə iştirakı barədə məlumat verilib. Eyni zamanda akademiyada elmi tədqiqatlar, mühəndislərin və tələbələrin yaradıcılıq fəaliyyəti haqqında məlumat təqdim olunub.

Daha sonra hərbi attaşeləri maraqlandıran suallar cavablandırılıb.

Ziyarət çərçivəsində qonaqlar akademiyanın Təlim Mərkəzində uçuşları tam imitasiya edən simulyatorların işini müşahidə ediblər. Həmçinin hərbi attaşelər təhsil müəssisəsinin ərazisində, Elm-İstehsalat Birliyində, Aviasiya Tarixi Muzeyində, kitabxanada, laboratoriyalarda, idman kompleksində və tədris korpuslarındakı auditoriyalarda olub, tələbələrlə keçirilən tədris prosesini izləyiblər.

Sonda birgə xatirə fotosu çəkilib.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Nəqliyyat və enerji qovşağı kimi malik olduğu imkanlar ölkəmizin geostrateji rolunun təkcə regionla məhdudlaşmamasına və daha geniş arealı əhatə etməsinə gətirib çıxarıb. Azərbaycanın Şərqlə Qərb, Şimalla Cənub arasında vacib körpü rolu oynaması yalnız onun əlverişli coğrafiyada yerləşməsi ilə bağlı deyil. Yürütdüyü çoxşaxəli və balanslaşdırılmış xarici siyasət, eyni zamanda daxildə yaradılan hərtərəfli infrastruktur, ən əsası, hər zaman beynəlxalq hüquqa sadiqlik nümayiş etdirən etibarlı tərəfdaş olması ölkəmizin dünyaya sirayət edən nüfuz qazanmasının, beynəlxalq aləmdə layiqli yer tutmasının başlıca səbəbləridir. Artıq Mərkəzi Asiya ölkələri ilə vahid geoiqtisadi platformanı bölüşən Azərbaycanın həyata keçirdiyi siyasət həm də coğrafi sərhədlərin artıq formal xarakter daşıdığı gerçəyini də danılmaz şəkildə ortaya qoyur.**



## VAHİD GEO SİYASİ İQTİSADİ REGİON

### Strateji tərəfdaşlıq xarakterinə malik yeni dinamika

Azərbaycanın birləşdirici rolu sayəsində Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında artan iqtisadi, ticari əlaqələrin yüksək potensialı hər kəs tərəfindən vurğulanır. Onu da qeyd edək ki, dünya nəhəngi Çinin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsində Mərkəzi Asiya ölkələrinin iştirakını da məhz Azərbaycanın geostrateji rolu labüd edir.

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycanın tamhüquqlu iştirakçı qismində adıçəkilən formata qoşulmasına dair qərar qəbul edilməsi də ölkəmizin yürütdüyü uzaqgörən siyasətin formalaşdırdığı reallıqların diktə etdiyi zərurətdir. Eyni zamanda bu platformada yer alması ölkəmizin həyata keçirdiyi çevik xarici siyasətin məntiqi nəticəsidir.

Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Cənubi Qafqazda yerləşsə də, bu gün fəal qarşılıqlı fəaliyyət sayəsində Mərkəzi Asiya və Azərbaycan artıq qlobal miqyasda nüfuzu əhəmiyyətli dərəcədə artan vahid geosiyasi və geoiqtisadi regiondur.

Azərbaycanla Mərkəzi Asiya dövlətləri arasında münasibətlərin xüsusi xarakter daşıdığını söyləyən dövlətimizin başçısı bildirdi ki, bizi çoxəsrlik ortaq tarix, mənəvi və mədəni irs, qardaşlıq, dostluq, həmrəylik birləşdirir: "Biz bu əlaqələri nəinki qoruyub saxlamışıq, həm də onlara strateji tərəfdaşlıq xarakterinə malik olan yeni dinamika bəxş etmişik".

Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Eyni zamanda mədəni əlaqələr uğurla inkişaf etdirilir ki, bu da xalqlarımızın, ölkələrimizin daha da yaxınlaşması baxımından vacibdir. Azərbaycanın Mərkəzi Asiya ölkələrinin hər biri ilə ayrı-ayrılıqda dostluğa əsaslanan ikitərəfli əlaqələrə malik olması vahid platforma çərçivəsində də ölkələrimizin siyasi, iqtisadi, təhlükəsizlik və sair məsələlərdə əməkdaşlıqlarının daha da dərinləşməsinə mühüm zəmin yaradacaq. O cümlədən indiyə qədər də beynəlxalq platformalarda bir-birlərinin milli maraqlarını müdafiə edən bu ölkələrin vahid güc kimi çıxış etmələri vacib məqamdır.

### Tarixi miqyasda hadisə

Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında son illər yüksəksəviyyəli qarşılıqlı səfərlər müntəzəm xarakter alıb. Son üç ildə Prezident İlham Əliyev Mərkəzi Asiya ölkələrində 14 dəfə səfərdə olub, bu müddət ərzində həmkarları respublikamıza 23 dəfə səfər ediblər.

Mərkəzi Asiya dövlətlərinin rəhbərlərinin Qarabağ bölgəsinə səfər etmələri isə ölkələrimiz arasındakı həmrəyliyin əyani təzahürüdür. Bu il iyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə Görüşü zamanı bu dostluq və həmrəylik bir daha nümayiş etdirildi.

Sözügedən dövlətlər işğaldan azad edilən ərazilərimizdə həyata keçirilən quruculuq və bərpa işlərində də yaxından iştirak edirlər. Özbəkistan, Qazaxıstan və Qırğızıstan dövlətlərinin xalqımıza hədiyyələri olan Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda Aykol Manas adına məktəb fəaliyyət göstərir.

Bu il 7 oktyabr tarixində Füzulidə Türkmənistan tərəfindən tikiləcək məscidin təməli qoyulub.

Bütün bunlar dost dəstəyinin örnəkləridir. Bu mənada Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı kimi qəbul edilməsi də təsadüfi deyildi.

Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündəki çıxışında dövlətimizin rəhbəri İlham Əliyev vurğuladı ki, bu qərar münasibətlərimizin dostluq və qardaşlıq xarakterini bir daha təsdiqləyir, həmçinin geniş coğrafi məkanda əməkdaşlığın və qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə xidmət edəcəkdir.

Yeri gəlmişkən bildirək ki, noyabrın 19-da türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov bu əlamətdar hadisə münasibətilə Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. Türkmən xalqının Milli Lideri bildirib: "Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə "Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında" qərarın yekdilliklə qəbul edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sözsüz ki, bu, tarixi miqyasda hadisədir".

Qurbanqulu Berdiməhəmmədov qəti əmin olduğunu bildirib ki, qəbul edilən qərar tamamilə qanunauyğundur, Mərkəzi Asiya ölkələrinin və Azərbaycanın tarixi inkişaf yolunu, onların zəruri ehtiyaclarını və həqiqi maraqlarını obyektiv şəkildə əks etdirir: "Məhz Mərkəzi Asiya və Azərbaycan transkontinental, çoxvektorlu qarşılıqlı əlaqədə əsas vəsilə olmaq vəzifəsini öz öhdələrinə götürüblər, bu olmadan tarazlaşdırılmış, uğurlu və davamlı müasir iqtisadi arxitekturanın yaradılması mümkün deyil. Artıq ölkənizin bu ali məqsədin reallaşmasında iştirakı əlavə güclü siyasi-hüquqi təməllə möhkəmləndirilib".

Göründüyü kimi, xarici siyasətində Mərkəzi Asiya ölkələri ilə əlaqələri prioritet seçən Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına üzvlüyü təkcə respublikamız və sözügedən dövlətlər üçün deyil, ümumilikdə daha geniş coğrafiya üçün vacib strateji əhəmiyyətə malikdir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## *Türk hüquqşünas:* "Tam üzvlük statusu Azərbaycanı Mərkəzi Asiya siyasətinin mərkəzi hissəsinə çevirib"

**"Mərkəzi Asiyanın bərpaolunan enerji potensialının Avropaya çıxışında Azərbaycan açar mövqe tutur. Azərbaycan ilə Mərkəzi Asiya ölkələri, xüsusilə Qazaxıstan, Özbəkistan və Türkmənistan arasında əməkdaşlıq son illərdə enerji, bərpaolunan enerji və elektrik inteqrasiyası, nəqliyyat və logistika (tranzit dəhlizlər), iqtisadi investisiya kimi sahələrdə sürətlə inkişaf edir. Bu əməkdaşlıq həm regional inteqrasiyanı gücləndirir, həm də tərəflər üçün strateji üstünlüklər yaradır.**



Xüsusilə Xəzər üzərindən "Yaşıl Enerji" dəhlizinin yaradılması məqsədilə müxtəlif razılaşmalar imzalanıb. Məsələn, 2024-cü ildə COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan "Strateji Tərəfdaşlıq Sazişi" imzalayıb. Bu saziş bərpaolunan enerji mənbələrinin (günəş/külək) istehsalı və ötürülməsi layihələrini əhatə edir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında türkiyəli hüquqşünas Zeki Arıtürk söyləyib.

Hüquqşünas bildirib ki, eyni zamanda 2025-ci ilin əvvəlində Azərbaycanın Energetika Nazirliyi Qazaxıstan və Özbəkistanla, Asiya İnkişaf Bankı (AİB) və Asiya İnfrastruktur İnvestisiya Bankı (AİİB) ilə birgə Anlaşma Memorandumu imzalayıb. Bu sənəd Xəzərin dibi ilə kabel çəkilməsi yolu ilə elektrik sistemlərinin bir-birinə bağlanması məsələlərini əhatə edir.

Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında nəqliyyat və logistika sahəsində də mühüm əməkdaşlıqlar başlayıb. Daşımalar üzrə əməkdaşlıq nəticəsində daşınan yük həcmi də əhəmiyyətli dərəcədə artıb.

Azərbaycan və Qazaxıstan qazax xam neftinin Azərbaycan ərazisindən Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri kimi marşrutlar vasitəsilə nəqli ilə bağlı məsələləri müzakirə edir.

"Azərbaycan noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilən Mərkəzi Asiya Dövlət Başçıları Şurasının 7-ci Məşvərət Görüşündə tam hüquqlu iştirakçı statusu əldə edib. Bu, Azərbaycanın artıq Mərkəzi Asiya siyasi platformasında yalnız dəvətli və ya müşahidəçi deyil, qərarların qəbulunda bərabər şəkildə iştirak edən rəsmi üzv statusuna malik olması deməkdir. Azərbaycanın tam üzvlük statusu ölkəni Mərkəzi Asiya siyasətinin mərkəzi bir hissəsinə çevirib, enerji, nəqliyyat, diplomatiya və təhlükəsizlik sahələrində regional təsirini əhəmiyyətli dərəcədə artırıb və artıracaq.

Azərbaycan artıq Mərkəzi Asiyada keçirilən bütün siyasi, iqtisadi və texniki toplantılarda - enerji, nəqliyyat, logistika, iqtisadiyyat kimi sahələr üzrə tam üzv kimi iştirak edəcək.

Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçıları Şurasının Məşvərət Görüşünə tam üzv kimi daxil olması yalnız Mərkəzi Asiyadakı mövqeyini deyil, eyni zamanda Cənubi Qafqazdakı rolunu da birbaşa gücləndirən və Azərbaycanı Cənubi Qafqazın mübahisəsiz liderinə çevirən strateji inkişafdır. Bakı regiondakı güc balansını öz xeyrinə dəyişib. Ermənistanın regional məsələlərdə təsiri azalarkən Azərbaycanın mövqeyi geosiyasi, iqtisadi və diplomatik baxımdan nəzərəçarpacaq dərəcədə güclənib", - deyə türk hüquqşünas əlavə edib.

# Mərkəzi Asiya platformasının yeni gücü

## Azərbaycan qlobal əlaqələri birləşdirən körpülər yaradır

**Azərbaycan Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olub. Bu tarixi qərar noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə elan edilib.**

Azərbaycanın Mərkəzi Asiya platformasına qoşulması əlbəttə ki, yeni imkanlar və perspektivlər deməkdir. Bu bir reallıqdır ki, Azərbaycan beynəlxalq arenada özünün strateji mövqeyini hər keçən gün daha da möhkəmləndirərək yeni siyasi və iqtisadi əməkdaşlıq imkanları əldə edir. Son zamanlar Azərbaycanın Mərkəzi Asiya platformasına qoşulması yalnız regionda deyil, həm də dünya səviyyəsində əhəmiyyətli bir addım kimi qiymətləndirilir. Bu platforma Azərbaycanın uzunmüddətli strateji məqsədlərinə uyğun olaraq həm iqtisadi, həm də diplomatik əlaqələrin genişlənməsinə töhfə verəcək bir imkan yaradır.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığını daha da inkişaf etdirəcəyi bu yeni platforma bölgədəki iqtisadi əlaqələri daha da möhkəmləndirmək məqsədini güdür. Azərbaycanın coğrafi mövqeyi onu Asiya və Avropa arasında mühüm bir körpü halına gətirir. Mərkəzi Asiya iqtisadiyyatı sürətlə inkişaf edən və yeni bazar axtaran ölkələrdən ibarət bir regiondur. Bu regionla genişlənən ticarət əlaqələri Azərbaycanın iqtisadiyyatının diversifikasiyasına və yeni gəlir mənbələrinin açılmasına səbəb ola bilər.

Mərkəzi Asiya ölkələri, xüsusilə də Türkmənistan, Qazaxıstan və Özbəkistan böyük enerji ehtiyatlarına və strateji əhəmiyyətə malikdirlər. Bu, Azərbaycana enerji ixracı üçün yeni bazarlar açır. Həmçinin Azərbaycana keçid nöqtəsi olaraq, bu ölkələrə nəqliyyat və logistika xidmətləri təqdim edilməsi Azərbaycanın tranzit ölkə statusunu daha da gücləndirə bilər.

Ölkəmizin enerji resursları regionda geniş şəkildə tanınır. Mərkəzi Asiya platformasına qoşulmaqla Azərbaycan bu regionun enerji ehtiyaclarını qarşılamaq və



ya enerji təchizatına töhfə vermək imkanı qazanır. Zəngin enerji ehtiyatlarımız həm də regionun enerji təhlükəsizliyini gücləndirən bir amil ola bilər.

Bu platforma Azərbaycan üçün geniş nəqliyyat və logistika imkanları açır. Qazaxıstan və Türkmənistanla birgə həyata keçirilən nəqliyyat layihələri artıq "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizləri ilə əlaqələndirilmişdir. Bu nöqteyi-nəzərdən Azərbaycanın tranzit imkanları regionda iqtisadiyyatın və ticarətin inkişafına ciddi töhfə verə bilər.

Azərbaycan Mərkəzi Asiya ilə daha da sıxlaşan münasibətlər vasitəsilə beynəlxalq arenada öz diplomatik rolunu artırır. Region ölkələri ilə birgə siyasi və iqtisadi təşəbbüslər Azərbaycanın xarici siyasətinin daha da güclənməsinə və dünya səhnəsində müsbət təsirinin artmasına imkan yaradır. Bu əməkdaşlıq regionda sabitliyin təmin olunması, sərhəd münaqişələrinin həlli və birgə inkişaf strategiyalarının irəlilədilməsi istiqamətində faydalı ola bilər.

Azərbaycanın Mərkəzi Asiya platformasına qoşulması həm də regionda güclü bir əməkdaşlıq şəbəkəsinin yaradılmasına və beynəlxalq hüquq çərçivəsində daha aktiv iştirak etməsinə şərait yaradır. Azərbaycanın mövqeyi həm regional, həm də qlobal təhlükəsizlik məsələlərində daha fəal rol oynamağa imkan verir.

Mərkəzi Asiya regionu yalnız iqtisadi deyil, həm də geopolitik baxımdan mühüm bir bölgədir. Azərbaycanın burada iştirak etməsi ölkənin beynəlxalq arenada yeni müttəfiqlər tapmasına və öz mövqeyini daha da möhkəmləndirməsinə imkan verir. Eyni zamanda bu addım Azərbaycanın dünya miqyasında mövqeyini gücləndirən bir strateji qərar olaraq qəbul edilə bilər. Gələcəkdə bu əməkdaşlıq Azərbaycana yalnız iqtisadi üstünlüklər qazandırmaqla kifayətlənməyəcək, həm də ölkəmizin dünya siyasətində daha təsirli olmasına imkan verəcək. Azərbaycanın bu yeni platformadakı iştirakı onun beynəlxalq əlaqələrini və müttəfiqlik şəbəkəsini genişləndirmək üçün bir yol açır.

Bir sözlə, Azərbaycanın Mərkəzi Asiya platformasına qoşulması regionun strateji inkişafı baxımından mühüm bir mərhələdir. Bu addım Azərbaycanın iqtisadiyyatını diversifikasiya etmək, yeni ticarət yolları açmaq, enerji təhlükəsizliyini gücləndirmək və diplomatik mövqeyini daha da möhkəmləndirmək üçün bir imkan yaradır. Bu, ölkəmizin gələcək inkişafının və regional gücünün mühüm bir hissəsi olacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat




## Belem Bakı standartına çata bilmədi

### COP-un mesajı isə dəyişməz qalır: zaman daralır, hər addım vacibdir

**Noyabrın 10-da Braziliyanın Belem şəhərində işə başlayan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasının (COP30) artıq 12 günü geridə qalıb. Bu müddət ərzində dünyanın 190-dan çox ölkəsini bir araya gətirən konfrans mühüm təşəbbüslər irəli sürüb. Belemin tropik havasının müşayiəti ilə gedən müzakirələr bir daha göstərdi ki, iqlim böhranının həlli siyasi iradə və maliyyə imkanları tələb edir.**

COP30-un gündəliyində əsas diqqət qlobal istiləşmənin 1,5°C həddində saxlanması, iqlim maliyyələşdirilməsi, enerji keçidi və meşələrin qorunması kimi prioritet məsələlərə yönəlib. Bu il Belem sammiti xüsusilə Amazon hövzəsinin ekoloji əhəmiyyətinə görə daha çox strateji rol oynayır. Dünyanın "ağciyərləri" hesab olunan bu bölgədə aparılan danışıqlar regional təhlükəsizlik, eləcə də qlobal ekosistemin davamlılığı üçün mühüm yer tutur. Baxmayaraq ki, global tədbir üçün Belem şəhərinin seçilməsi bir sıra logistik çətinliklərə səbəb olub. Zəif nəqliyyat əlaqələri və münasib qiymətli hotellərin çatışmazlığı bu problemlər sırasındadır. Amma COP30-un keçirilməsi qlobal iqlim gündəliyinin irəliləməsi üçün vacib bir mərhələdir. Konfrans qlobal iqlim gündəliyinin ən çətin dönəmlərindən birində keçirilir. Dünya istiləşmənin qarşısını almaq üçün sanki zamanla yarışır. 2015-ci ildə Parisdə təxminən 200 ölkə bəşəriyyət üçün həyati əhəmiyyət daşıyan bir öhdəlik götürmüşdü: qlobal temperatur artımını maksimum 1,5°C-də saxlayaraq, 2°C həddinə yaxınlaşmamaq. Lakin bu gün gəldiyimiz nöqtə göstərir ki, həmin hədəflər gözlənildiyindən daha böyük təhlükə ilə üz-üzə dayanıb. Elm adamları və ekoloqlar xəbərdarlıq edirlər ki, 2°C-lik istiləşmənin törədəcəyi fəsadlar, yəni yandırıcı istilər, dağıdıcı daşqınlar, dəniz səviyyəsinin durmadan yüksəlməsi, buzlaqların əriməsi, 1,5°C-lik artımın yaratdığı riskləri dəfələrlə üstələyir.

Məlumdur ki, bu gün bərpaolunan enerji, xüsusən də günəş enerjisi dünyada sürətlə yayılır. Amma bu artım ölkələrin iqlim planlarındakı boşluqları tam doldururmu? Təəssüf ki, yox. Mövcud planlar hələ də 1,5°C hədəfinə çatmaq üçün tələb olunan səviyyədən geri qalır. Üstəlik, Paris razılaşmasına əsasən, ölkələr COP30-dan əvvəl karbon emissiyalarının azaldılması ilə bağlı yenilənmiş strategiyalarını təqdim etməli idilər. Amma nəticə heç də gözlənildiyi kimi deyil, məyusedicidir. Ölkələrin cəmi üçdəbiri bu öhdəliyi yerinə yetirib. Qalanların səssizliyi isə iqlim böhranının həlledici çağında zamanın əldən getdiyini göstərir. Konfransın ilk günlərindən inkişaf etmiş ölkələrdən iqlim dəyişmələri ilə mübarizə aparan inkişaf etməkdə olan dövlətlər üçün maliyyə dəstəyinin artırılması ilə bağlı bir sıra çağırışlar səsləndirilir. "İtkilər və Zərərlər Fondu"nun daha effektiv işləməsi üçün yeni mexanizmlər müzakirə olunur.

COP30-un ən çətin və mübahisəli mövzularından biri ənənəvi yanacağın azaldılması və qlobal enerji keçidinin sürətləndirilməsidir. Qlobal tədbirin ev sahibi Braziliya isə COP30-da meşələrin mühafizəsi sahəsində yeni regional platforma təşəbbüsünü irəli sürüb. Bu təşəbbüs çərçivəsində Amazon ölkələri arasında məlumat mübadiləsi, sərhədlərarası ekoloji monitorinq və qanunsuz meşə qırılmasına qarşı birgə tədbirlər nəzərdə tutulur. Get-gedə azalan su ehtiyatları, ekstremal hava hadisələri və sürətlə artan sosial-iqtisadi təzyiqlər fonunda COP30-da adaptasiya məsələləri də geniş müzakirə olunur. Xüsusilə kiçik ada dövlətləri və quraqlığa meyilli regionlar üçün daha səmərəli adaptasiya fondlarının yaradılması təklif edilir.

Qeyd edək ki, Azərbaycanı Belem İqlim Sammitində Milli Məclisin Sədri Sahibə Qafarova, həmçinin Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə xüsusi nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayevin rəhbərlik etdiyi COP29 heyəti, Xarici İşlər Nazirliyinin, digər dövlət və hökumət təşkilatlarının rəsmiləri təmsil edirlər. Bir neçə gün əvvəl Azərbaycan nümayəndə heyətinin rəhbəri Sahibə Qafarova COP30-da çıxış edərkən Braziliyanı bu mühüm prosesdə dəstəkləməyə, vacib qərarları qəbul etməyə, planetimiz və gələcəyimiz üçün olduqca həlledici olan fəaliyyətlərin həyata keçirilməsinə çağırıb: "Azərbaycan COP28 və COP30 sədrlikləri ilə birlikdə iddialı Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri (NDC) təşviq etmək üçün güclü öhdəlik nümayiş etdirib. Azərbaycan eyni zamanda öz milli səviyyədə müəyyən edilmiş töhfələrini hazırlayarkən də eyni qətiyyəti göstərib. 2050-ci il üçün müəyyən edilmiş hədəfin reallaşdırılmasını 15 il önə çəkərək, bu hədəflərin 2035-ci ildə növbəti milli səviyyədə müəyyən edilmiş töhfələr tsikli dövründə reallaşdırmağı hədəfləyib".

Ötən il Bakıda keçirilən COP29 iqlim maliyyəsinin gələcək strukturunu qurmağa yönəlmiş qərarlarla yadda qaldısa, COP30 artıq bu qərarların real həyatda necə işləyəcəyini göstərən icra mərhələsini əks etdirir. Bu keçid bir daha göstərir ki, qəbul olunan hər addımın arxasında güclü qərarvermə, hər qərarın arxasında isə ardıcıl liderlik dayanmalıdır. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Strateji planlaşdırma şöbəsinin aparıcı məsləhətçisi Ceyran Bəbirova COP-un Azərbaycan və Braziliya sessiyasından söz açaraq deyib ki, Bakıda ilk dəfə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında maliyyə, məsuliyyət və əməkdaşlıq balansının yenidən qurulması, əslində, COP prosesində uzun illərdir mövcud olan boşluğu dolduran dönüş nöqtəsi idi: "130-dan çox ölkə COP29 naminə "Birgə Atəşkəs Çağırışı"nı, 90-dan çox hökumət və 1000-dən çox təşkilat isə COP29 Yaşıl Rəqəmsal Fəaliyyət Bəyannaməsini imzalayıb. Konfransın ən mühüm nəticələrindən biri inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər iqlim maliyyəsinin illik, ən azı 1,3 trilyon dollara çatdırılması hədəfinin müəyyən edilməsidir. Bununla yanaşı, iqlim maliyyəsi tarixində ilk dəfə konkret rəqəm üzərində razılıq əldə olunub və Yeni Kollektiv Kəmiyyət Hədəfi əvvəlki öhdəliklərlə müqayisədə üç dəfə artırılaraq yeni qlobal standart kimi təsbit edilib. Belemdə ortaya qoyulan bütün yeni layihələr, adaptasiya təşəbbüsləri, şəhər siyasətləri və regional proqramlar məhz Bakıda müəyyənləşdirilmiş bu balansın üzərində qurulur. Yəni COP30-un fəaliyyət mərhələsi mahiyyətcə COP29-un yaratdığı siyasi və maliyyə modelinin praktik tətbiqidir. Məhz buna görə "Bakıdan Belemə gedən yol" sadəcə iki COP konfransı arasındakı keçid deyil, qlobal iqlim prosesinin özündə qərardan icraya keçidi əks etdirir. Bakı qlobal iqlim prosesində qaydaları müəyyənləşdirdi, Belem isə həmin qaydaların tətbiq olunduğu mərhələni həyata keçirir".

Qeyd edək ki, COP29 ümumilikdə gələcək iqlim prosesləri üçün siyasi və maliyyə çərçivəsini qurdu. COP30 isə həmin çərçivənin real həyata keçirilməsini test edən mərhələdir və burada problemlər bir-birinin ardınca üzə çıxır. Xüsusilə maliyyə məsələlərində dərin fikir ayrılıqları danışıqları çətinləşdirir, karbon emissiyalarından mərhələli çıxış üzrə yol xəritəsi ölkələri qarşı-qarşıya qoyur, yenilənmiş milli iqlim planları gecikir və logistik çətinliklər barədə narazılıqlar artır. Qlobal tədbirin Amazon bölgəsində keçirilməsinin əhəmiyyəti böyük olsa da, Braziliyanın öz enerji siyasəti də tənqid olunur. Nəticə etibarilə COP29-un uğurlu və nümunəvi formatından sonra COP30 daha gərgin, siyasi cəhətdən parçalanmış və problemlərlə yüklənmiş görünür. COP29 planlaşdırmanı təmsil edirdisə, COP30 həmin planların taleyini müəyyən edən həlledici icra mərhələsinə çevrilib.

COP30-un bu günə kimi olan fəaliyyəti göstərdi ki, iqlim böhranının həlli qəbul olunan qərarların əməli tətbiqindədir. Qlobal əməkdaşlıq, maliyyə dəstəyi və siyasi iradə bir araya gəlmədikcə 1,5°C hədəfi hələ də uzaq görünür. Amma COP30 ümid də verir: dünya bir araya gəlib müzakirə edə, çətin mövzularda kompromislər tapa və gələcək üçün bir yol xəritəsi çəkə bilər. Zaman daralır, atılan hər addım vacibdir və hər ölkənin rolu əvəzsizdir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## İsrailin energetika və infrastruktur naziri ilə görüş keçirilib

**İsrailin energetika və infrastruktur naziri ilə görüşdə enerji üzrə tərəfdaşlıq məsələləri müzakirə olunub.**



İsrailə işgüzar səfəri çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov bu ölkənin energetika və infrastruktur naziri Eli Kohen ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında səmərəli enerji tərəfdaşlığının qurulduğu diqqətə çatdırılıb. Enerji və su sektorları üzrə işbirliyinin daha da gücləndirilməsi, neft-qaz sahəsində birgə fəaliyyətin dərinləşdirilməsi barədə fikir mübadiləsi aparılıb.

## "Logitrans Turkiye 2025" sərgisində Azərbaycanın tranzit potensialı təqdim olunur

**"Azərbaycan Dəmir Yolları" QSC və onun törəmə şirkəti "ADY Express" MMC İstanbulda keçirilən "Logitrans Turkiye 2025" beynəlxalq nəqliyyat və logistika sərgisində stendlə təmsil olunur.**




Stenddə regional tranzit marşrutları, logistika həlləri və əməkdaşlıq imkanları barədə təqdimatlar, görüşlər və müzakirələr keçirilir. ADY-dən AZƏRTAC-a bildirilib ki, beynəlxalq tərəfdaşlarla keçirilən görüşlərdə yeni layihələrin icrası və yük axınlarının artırılması istiqamətində fikir mübadiləsi aparılır.

Sərgi çərçivəsində həmçinin ziyarətçilərə Azərbaycanın tranzit potensialı, ölkənin nəqliyyat şəbəkəsinin Orta dəhlizlə Çindən yük daşımaları üçün təqdim etdiyi üstünlüklər barədə geniş məlumat verilir.

Sərginin təşkilatçıları tərəfindən səmərəli fəaliyyətinə görə ADY nümayəndə heyətinə "Dəyərli tərəfdaş" nominasiyası üzrə mükafat təqdim olunub.

"Logitrans Turkiye" sərgisi regionun aparıcı logistika platformalarından biri hesab olunur. İyirmi minə yaxın insanın ziyarət etdiyi builki sərgidə 20 ölkədən 230-dək şirkət təmsil olunur, iştirakçılar və ziyarətçilərə texnoloji həllərin nümayişi və beynəlxalq tərəfdaşlıqlar üçün geniş imkanlar təqdim edilir.

## On ayda pensiya ödənişlərinə 5,9 milyard manatdan çox vəsait yönəldilib



**Bu ilin 10 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 516 milyon və ya 10 faiz çox olmaqla 5 milyard 920 milyon manat vəsait yönəldilib.**

2025-ci ilin əvvəlindən bütün növ pensiyaların 8,1 faiz indeksləşdirilərək artırılması, fevralın 1-dən minimum pensiyanın 14,3 faiz artımla 280 manatdan 320 manata çatdırılması təmin edilib.

Yanvar-oktyabr aylarında 35 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 173 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Elektron Təhlükəsizlik Xidməti zərərli proqram təminatının fəaliyyəti ilə bağlı göstəriciləri müəyyən edib

**Elektron Təhlükəsizlik Xidməti ölkə üzrə bəzi informasiya sistemlərini hədəfləmiş və istifadəçi giriş məlumatlarının ələ keçirilməsini təmin edən "infostealer" tipli zərərli proqram təminatının fəaliyyəti ilə bağlı göstəriciləri müəyyən edib. Bu barədə AZƏRTAC-a Elektron Təhlükəsizlik Xidmətindən bildirilib.**

Məlumata əsasən, ilkin təhlil nəticəsində ölkə üzrə 859 kompüterin sistemi sözügedən zərərli proqram təminatına yoluxub və həmin sistemlərdən 54 924 ədəd istifadəçi adı və şifrə məlumatı ələ keçirilib.

Hazırda xidmət məlumatların təhlili, potensial qurbanların müəyyən edilməsi, eyni zamanda mümkün təsir dərəcəsinin qiymətləndirilməsi və aradan qaldırılması istiqamətində metodoloji dəstəyin göstərilməsi üzrə aktiv fəaliyyət aparır.

Qeyd edək ki, əldə olunan göstəricilər operativ şəkildə emal olunaraq aidiyyəti qurumlara birbaşa təqdim ediləcək.

Elektron Təhlükəsizlik Xidməti bütün təşkilatları və vətəndaşları kibertəhlükəsizlik tədbirlərini gücləndirməyə, şübhəli fəaliyyət halları müşahidə edildikdə 1654 "Qaynar xətt"i və ya info@cert.az elektron poçt ünvanı vasitəsilə məlumat verməyə çağırır.

## Almaniya da Azərbaycanın "yaşıl enerji"sinə maraq göstərir

**Yaxın illərdə gerçəkliyə çevriləcək "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi hazırda dünyanın diqqət mərkəzindədir. Bu da təsadüfi deyil, çünki söhbət sıradan bir layihə haqqında getmir.**



2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Bu sazişə əsasən yaradılan, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı birləşdirən "Yaşıl Enerji Dəhlizi" sözügedən dörd ölkənin təmiz və təhlükəsiz enerjinin ötürülməsi üzrə ortaq strateji baxışına əsaslanır. Ümumi uzunluğu 3 min kilometr olan dəhliz vasitəsilə "yaşıl enerji" Qara dənizin dibi ilə Avropaya ötürüləcək. Bu kabel vasitəsilə ildə təxminən 4 giqavat gücündə "yaşıl enerji"nin Avropaya nəqli planlaşdırılır.

Məlum olduğu kimi, "yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına ixracı Prezident İlham Əliyevin enerji siyasətinin prioritetlərindəndir. 44 günlük Vətən müharibəsindəki qələbəmizdən az sonra Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizi - 10 min kvadratkilometr sahəni "yaşıl enerji" zonası elan etdi. Eləcə də Naxçıvan MR "yaşıl enerji" zonası elan olunub. Bərpaolunan enerji istehsalı siyasətinin strateji əsasını dövlət tərəfindən müəyyənləşdirilən və 2021-ci ilin fevralında qəbul olunan "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" təşkil edir. Beş milli prioritetdən biri - təmiz ətraf mühit və "yaşıl artım ölkəsi" prioriteti qarşıya yeni hədəflər qoyur. Bununla yanaşı, "Azərbaycan Respublikasının 2022-2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası"nda elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 2026-cı ilədək 24 faiz, 2030-cu ilədək isə 30 faizə çatdırılması nəzərdə tutulur.

Azərbaycanın bərpaolunan enerjidə texniki potensialı quruda 135 qiqavat və dənizdə 157 qiqavat təşkil edir. Bərpaolunan enerji layihələrimizin sayı ildən-ilə artır. 2030-cu ilə qədər ölkəmizdə təxminən 6 qiqavatlıq günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır. Lakin bu, planlarımızın hamısı deyil, çünki 10 qiqavatlıq bərpaolunan enerji layihələri üzrə müqavilələr və anlaşma memorandumları imzalanıb. Əgər əvvəlki hədəfimiz 2050-ci ilədək istixana qazı emissiyalarını 40 faizədək azaltmaq idisə, hazırda bu məqsədə 2035-ci ilə qədər nail olmaq qarşıya qoyulub.

SOCAR artıq yalnız neft-qaz deyil, inteqrasiya olunmuş enerji şirkəti kimi fəaliyyət göstərir. Bu çərçivədə 2024-cü ilin martında yaradılmış "SOCAR Green" şirkəti bərpaolunan enerji təşəbbüslərinə öncüllük edir.

Regional gündəlikdə də "yaşıl enerji" layihələri üzərində iş gedir. Təkcə Azərbaycanda deyil, Mərkəzi Asiya ölkələrində də günəş və külək-elektrik enerjisi stansiyaları yaradılır. Dövlətimizin başçısı bu istiqamətdə də əməkdaşlığı genişləndirir. Ötən il noyabrın 13-də Bakıda COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalamışlar. Həmin sənədə əsasən, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi nəzərdə tutulur. Bu xətt Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"ni Azərbaycanın infrastrukturuna birləşdirəcək.

Ötən ilin iyul ayında keçirilən II Şuşa Qlobal Media Forumunda Prezidentimiz bu məsələyə bir daha toxunub: "Bizim planlarımız, istədiyimiz həyata keçsə, Özbəkistan və Qazaxıstandan Xəzər dənizindən keçərək Azərbaycana, Gürcüstana, Türkiyə və Rumıniyaya uzanacaq kabel xətti inşa edə bilərik. Yəni bu layihə "Cənub qaz dəhlizi"ndən də daha böyük layihə olacaq. Amma bizim əməkdaşlığa, eyni zamanda koordinasiyaya ehtiyacımız var".

Bəs hazırda layihə həyata keçirilməsinin hansı mərhələsindədir? Bu günlərdə Azərbaycanın Almaniyadakı səfirliyinin, Alman İqtisadiyyatının Şərq Komitəsinin və "Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti"nin birgə təşkilatçılığı ilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə keçirdiyi təqdimatın materiallarından həmin suala cavab tapmaq mümkündür. Belə ki, hazırda layihə Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin (ENTSO-E) növbəti Onillik Şəbəkə dənizaltı kabel texnologiyaları, istehsalçı şirkətlərlə danışıqlar, potensial tərəfdaşlıq modelləri və layihənin reallığa çevrilməsi mərhələsi üçün mümkün inkişaf variantları seçir. Bundan əlavə, layihənin uğurla icrası üçün qarşıdakı dövrdə müxtəlif maraqlı tərəflər və potensial enerji alıcıları ilə əməkdaşlıq daha da gücləndirilir. Sazişin 2022-ci ildə imzalanmasından sonra dörd ölkə arasında 11 nazirlər görüşü keçirilib, texniki-iqtisadi əsaslandırma üzrə razılaşma əldə olunub və birgə müəssisə yaradılıb.

Avropa İttifaqının layihəni prioritet dənizüstü enerji dəhlizləri sırasında tanıması ittifaqın bölgəyə və layihəyə siyasi dəstəyini nümayiş etdirir. Məsələn , elə sözügedən tədbirdə Alman İqtisadiyyatının Şərq Komitəsinin Şərqi Avropa üzrə regional direktoru Alena Akuliç "Yaşıl Enerji Dəhlizi" üzrə üçtərəfli və çoxtərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi, eləcə də yeni layihələrin işə salınması perspektivlərinin komitə üçün prioritet istiqamətlərdən olduğunu qeyd edərək, Bakıya son səfəri zamanı bir sıra müqavilələrin imzalanması biznes marağının artmasını göstərdiyini deyib.

Xatırladaq ki, Azərbaycan hazırda Avropanın 10 ölkəsinə qaz tədarük edir. İldə 3 milyard kubmetrlik Azərbaycan qazının Almaniyaya ixracını nəzərdə tutan müqavilələr də enerji sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından önəm daşıyır. Alman şirkətləri üçün "yaşıl enerji"nin ixracında iştirak etmək də arzuolunandır.

Yeri gəlmişkən onu da vurğulayaq ki, Azərbaycan-Almaniya münasibətləri bir çox istiqamətdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf edir. Prezident İlham Əliyevin son iki ildə Almaniyaya dörd dəfə səfər etməsi, Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin bu ilin aprelində ölkəmizə ilk rəsmi səfəri ikitərəfli münasibətlərin yüksək səviyyəsinin göstəricisidir. Almaniyanın yeni hökuməti ilə dialoqun yüksələn xətt üzrə davam etməsi alman iqtisadiyyatının Azərbaycana artan marağının dinamikasını daha da möhkəmləndirir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# REGİONLAR

## Rəştdə Xəzəryanı ölkələrin sahilyanı regionlarının rəhbərləri görüşüblər

**İranın Rəşt şəhərində Xəzəryanı ölkələrin sahilyanı regionları arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə həsr olunmuş görüş keçirilib.**

Azərbaycan, İran, Qazaxıstan, Türkmənistan və Rusiyanın rəsmi nümayəndə heyətlərinin iştirak etdikləri görüşdə sahilyanı regionlar arasında ticarət, sənaye, nəqliyyat-logistika, kənd təsərrüfatı, investisiya və ekoloji sahələrdə əməkdaşlığın gücləndirilməsi məsələləri plenar iclaslarda müzakirə olunub.



Tədbirdə İran İslam Respublikasının xarici işlər və mədəniyyət nazirləri, ölkənin digər dövlət qurumlarının rəsmiləri, Azərbaycan nümayəndə heyətinin tərkibində isə sahilyanı regionları təmsil edən Lənkəran RİH başçısı Taleh Qaraşov, Neftçala RİH başçısı Mirhəsən Seyidov iştirak ediblər. Görüşün açılışında və xüsusi plenar sessiyada çıxış edən Mirhəsən Seyidov Xəzər dənizinin regionlarımız arasında əməkdaşlığın genişləndirilməsi, sabitliyin möhkəmləndirilməsi, dayanıqlı iqtisadi inkişafın təmin olunması üçün mühüm strateji platforma olduğunu vurğulamış, Xəzərin üzləşdiyi qlobal ekoloji problemin həllində birgə səy göstərməyin vacibliyini qeyd etmişdir. Həmçinin bildirmişdir ki, sahilyanı bölgələr arasında əlaqələrin genişlənməsi ticarət, turizm, nəqliyyat və ekoloji sahələrdə əməkdaşlığa yeni imkanlar açır.

Görüş çərçivəsində Xəzəryanı regionlar arasında qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, nəqliyyat şəbəkələrinin genişləndirilməsi, sərmayə layihələrinin təşviqi və sahilyanı ekosistemin qorunması üzrə bir sıra praktiki təkliflər müzakirə edilmişdir.

İclasın sonunda Xəzəryanı ölkələrin sahilyanı regionlarının rəhbərlərinin görüşünün kommünikesi qəbul olunmuşdur.

*S.QUBADOĞLU,*
*"Azərbaycan"*

## Havalar pambıqçıların üzünə gülür

### Goranboylu fermerlər günəşli günlərdən maksimum istifadə etməyə çalışırlar

**Gəlirli kənd təsərrüfatı sahələrindən olan pambıqçılığın dayanıqlı inkişafına nail olmaq üçün goranboylu fermerlər bütün imkanlardan istifadə etməyə çalışırlar. Onlar bu strateji məhsulun istehsalını artırmaq üçün ilk növbədə daha çox məhsuldar sortlara üstünlük verirlər.**

Bu hesaba cari ildə tarlalarda bol məhsul yetişmişdir. Hazırda pambıq yığımı gedir. Yığımda kombaynlardan savayı, əl əməyindən də istifadə edilir. Onu da qeyd edək ki, hər gün yığımla bağlı rayon icra hakimiyyətində yaradılmış qərargaha məlumat verilir və bununla yığıma ciddi nəzarət olunur.

Məlum tənəzzüldən sonra Goranboyda 2012-ci ildən yenidən pambıq əkininə başlanılmışdır. Bu mövsüm rayon üzrə 1983,3 hektarda pambıq əkilmişdir. Onun 973,5 hektarı "Azərpambıq", 570,8 hektarı "Region Aqro", 248 hektarı "Goran Cotton" və 191 hektarı isə "Azərşəkər" MMC-lərin payına düşür. Pambıqçılığın inkişaf etdiyi əsas ərazilər Faxralı, Qaramusalı, Səfikürd, Xan Qərvənd, Əlirzalı, Yeniyol, Balakürd, Boluslu, Nərimanlı, Qarapirimli, Goranlı, Quşçular, Gülməmmədli, Düzqışlaq və Aşağı Ballıqaya kəndləridir. Pambıq yığımına bu kəndlərdən əlavə, ətraf kəndlərin sakinləri də cəlb edilmişlər.



Əlimizdə olan son məlumata görə, "Azərpambıq" MMC 2,1 min, "Region Aqro" MMC 1,4 min, "Goran Cotton" MMC 430, "Azərşəkər" MMC 72,3 ton pambıq yığaraq təhvil vermişlər.

Onu da bildirək ki, cari mövsüm rayon üzrə pambıq yığımına 41 texnika cəlb edilmişdir. Yığılmış pambığın məntəqələrdə qəbulunda problem yaşanmır. Bu işdə 177 nəfər işçi çalışır ki, onların da çoxu pambıq qəbulunda ixtisaslaşmışdır.

Hazırda yığım davam edir. Fermerlər çalışırlar ki, yağıntılar düşənəcən məhsulu vaxtında və itkisiz toplasınlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Ağdamda növbəti əmək yarmarkası keçirilib

**Böyük qayıdış proqramına uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlər üçün aktiv məşğulluq tədbirlərini davam etdirir.**

Agentlik tərəfindən Ağdamda növbəti əmək yarmarkası təşkil olunub. Yarmarkada işsiz və işaxtaran şəxslərə mütəxəssis, xəzinədar, qənnadçı, nəzarətçi, qeydiyyatçı və s. işlər üzrə 67 vakansiya təqdim edilib.

Aktiv məşğulluq tədbirində təqdim olunan vakansiyalara uyğun namizədlərin qeydiyyatı aparılıb.

Həmçinin işsiz və işaxtaran şəxslərə agentliyin aktiv məşğulluq proqramları və bu proqramlara müraciət qaydaları barədə də məlumat verilib.

*L.QULİYEV,*
*"Azərbaycan"*

## Hunanlar yerkökü adı ilə tanınır

### Məhsulun çox hissəsi xaricə ixrac olunur

**Bölgədə yerkökü ən çox Tovuzun Hunanlar kəndində yetişdirilir. Keçən ilin oktyabr ayında 105 hektar sahəyə yerkökü toxumu səpən kənd sakinləri cari ilin may ayından kütləvi yığıma başlamışlar.**



Onu da bildirək ki, Kür çayının sağ sahilində yerləşən qədim Hunanlar kəndində yetişdirilən, ekoloji cəhətdən təmiz və əmtəə dəyəri yüksək olan yerkökü həm daxili, həm də xarici bazarlarda özünün satış qiymətinə və keyfiyyətinə görə fərqlənir. Bu da təsadüfi deyil.

Kənd sakinləri illərdir ki, yerkökü istehsalında zəngin təcrübə toplamışlar. Onlar istehsal etdikləri məhsulun çox hissəsini yerli bazarlarla yanaşı, xarici ölkələrə, xüsusən də Rusiya, Ukrayna, Gürcüstan və digər ölkələrə çıxarırlar. Qiymətlərə gəldikdə hazırda yerkökünün kiloqramı 60-90 qəpikdir.

Söhbət zamanı fermerlər bildirdilər ki, yerkökü əl ilə yığılır. Bitkinin dibinə əvvəlcə su axıdılır ki, kökün çıxarılması asanlaşsın. Sahədən toplanıb gətirilən kök yüksəktəzyiqli su ilə təmizlənənə qədər yuyulur. Ümumiyyətlə, bir hektar sahəyə ümumilikdə 3 min manata yaxın pul xərclənir. Məhsul qış aylarında örtülü şəraitdə becərilir. Bunun üçün sellofandan istifadə edilir. Yazda havalar istiləşəndə sellofan örtüklər götürülür. Aprelin sonu, may ayının əvvəlində yığıma başlanılır. Yığılan yerkökünün bir qismi təmizlənir və içərisindən standartları seçilir. Təxminən 1 ton kökdən 600-700 kiloqram sağlam məhsul götürülərək qablaşdırılır.

Xaricə ixrac olunan yerkökünü əsasən yük maşınlarının sahibləri özləri yığırlar. Yığım dövründə kəndin əkin sahələrinə, eləcə də bu işlə məşğul olan sakinlərin qapılarında yerkökü yığan onlarca maşın görmək mümkündür. Sürücülər çalışırlar ki, məhsulu qısa vaxt ərzində ünvana çatdırsınlar.

Hazırda kənddə 525 təsərrüfat var və demək olar ki, bu təsərrüfatların hamısı yerkökü yetişdirməklə məşğuldur. Kənd sakinləri Yavər Nəcəfov, Musa Salmanov, Qafar Zeynalov, Əyyub Əhmədov və başqaları uzun illərdir bu işlə məşğuldurlar. Söhbət zamanı kənd sakinləri məhsulun satışında elə bir problemin olmadığını söylədilər. İstehsal olunmuş yerkökünün satışından gələn qazanc da sakinləri razı salır.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Cəlilabadda payızlıq kartof yığımı davam edir

**İl ərzində eyni sahədən 2 dəfə müxtəlif kənd təsərrüfatı məhsulları götürmək Cəlilabadda xarakterik hal almışdır. Bu, torpaqdan daha səmərəli istifadə edərək həm məhsul bolluğu yaradılmasına, həm əmək tutumuna, həm də fermerin torpaqdan daha yüksək məhsul əldə etməsinə və torpaq üçün vacib şərt olan növbəli əkinin tətbiqinə şərait yaradır.**

Bunun əvəzində əkinçilər də torpağa nümunəvi qulluq göstərməyi unutmurlar, şum altına lazımi qədər üzvi və mineral gübrələr verirlər. Ümumiyyətlə, münbit Cəlilabad torpağı nə desən yetişdirir.

Sovetlər zamanında da burada kartof əkilirdi, lakin yalnız həyətyanı sahələrdə. Kolxoz və sovxozlara məxsus torpaqlarda isə taxıl və üzüm əkilirdi. Torpaq islahatı aparılandan sonra hər kəs pay torpağında istədiyini əkib-becərmək imkanı qazandı. Elə həmin dövrdən də rayonda kartofçuluq sürətlə inkişaf etməyə başladı. Fermerlər, torpaq mülkiyyətçiləri yaxşı gəlir gətirdiyini görüb kartof əkini sahələrini ildən-ilə genişləndirdilər.

Cari il Cəlilabadda 3 min 100 hektarda yazlıq kartof əkilib. Hər hektarın məhsuldarlığı 300 sentnerə çatıb. Bu da ümumilikdə 93 min 44 ton kartof deməkdir. Yazlıq 3 min 100 hektarın müəyyən bir hissəsi sellofan örtük altında becərilib. Bu isə kartofun daha tez, yəni aprel ayının ikinci yarısında yetişməsinə şərait yaradıb.



Erkən yetişən kartof nübar məhsul kimi baha satıldığından fermerlərə yaxşı qazanc gətirir. Bundan sonra açıq şəraitdə yetişdirilən kartofun yığımına başlanılır. Yığımın ilk ongünlüyündə açıq şəraitdə becərilən kartof da fermerləri qane edən qiymətə satılır. Lakin sonra məhsul çoxaldıqca qiymətlər aşağı düşür. Elə il olur ki, fermer müəyyən qədər qazanc əldə edir, elə il də olur ki, xərci borcunu güclə ödəyir. Odur ki, kənd təsərrüfatının digər sahələri kimi, kartofçuluğun da öz xüsusiyyətləri və problemləri var.

Havalar da bu bitkinin inkişafına, məhsuldarlığına təsirsiz ötüşmür. Digər tərəfdən, əkinçi daha məhsuldar kartof növləri əldə etməkdə müəyyən çətinliklərlə qarşılaşır. Rusiyadan toxumluq kartof alıb gətirən ayrı-ayrı işbazlar onu istədikləri qiymətə satmağa çalışırlar.

Sahələrin suvarılması zamanı da ortaya problemlər çıxır. Hər kəs artezian quyusu qazdıra bilmir. Əvvəllər yeraltı sular torpağın səthinə yaxın olduğu üçün 5-6, bəzən daha az dərinlikdən su çıxarmaq mümkün idisə, bu iş indi olduqca çətinləşib.

Lakin ortaya çıxan bu kimi çətinliklər cəlilabadlı fermerləri nə qorxudur, nə də ruhdan salır. Onlar ikinci çörək hesab edilən kartofçuluğa diqqəti azaltmırlar, qeyd etdiyimiz kimi, torpaqdan hətta ildə iki dəfə məhsul götürürlər. Bunun üçün avqust ayında əkin aparırlar. Yazlıq kartof kimi payızlığa da yüksək aqrotexniki xidmət göstərilir.

Hazırda məhsul yığılır. 1020 hektar sahədən indiyə qədər 20 min ton kartof tədarük edilib. Məhsuldarlıq hər hektardan orta hesabla 200 sentnerdir. Payızlıq kartof yazlıqdan fərqli olaraq əsasən ölkə daxilində satılır. Fermerlərdən Zahid Ağayev, Mahir İmanov, Elman Mansurov, Səxavət Həsənov və başqaları bol məhsul yetişdirmişlər.

İndi bir o qalır ki, yazda və payızda yetişdirilən bu qiymətli məhsulları alaraq xüsusi anbarlarda saxlayan, lazım gəldikcə ölkəmizin bazar və dükanlarına verməklə xaricdən aldığımızın minimuma endirilməsini təşkil etmək. Çox təəssüf ki, hələ də heç kəs bu işi öz öhdəsinə götürməmişdir. Amma bu işin vaxtı çoxdan çatmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Masallıda sitrus, çay və çiyələk əkinindəki vəziyyət müzakirə olunub

**Masallının Mahmudavar kəndində "Sitrus, çay və çiyələk əkini ilə bağlı görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda zona müşavirəsi keçirilib. Müşavirədə Masallı rayon rəhbərliyi ilə yanaşı, idarə, müəssisə və təşkilatların nümayəndələri, bələdiyyə sədrləri və 150 nəfər fermer-torpaq mülkiyyətçisi iştirak ediblər.**

Tədbirdən öncə müşavirə iştirakçıları Mahmudavar kəndində fəaliyyət göstərən "Baba Bulağı" MMC-yə məxsus meyvəqurutma sexi, yeni yaradılmış, sutkalıq gücü 1,5 ton olan mini çay fabriki, eləcə də rayonda istehsal edilən kənd təsərrüfatı məhsulları sərgisi ilə tanış olublar.

Müşavirəni giriş sözü ilə açan Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov bildirib ki, Prezidentin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi hazırlanıb: "Həmin sənəddə ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir". Ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində davamlı işlərin görüldüyündən danışan A.Əhmədov məhsul istehsalçılarına verilən dövlət dəstəyindən, o cümlədən sitrus meyvəçiliyi, çay və çəltikçiliyin inkişafı üçün geniş imkanlar yaradıldığından söz açıb.

Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Seymur Nuriyev isə qeyd edib ki, Azərbaycanda icra olunan regionların sosial-iqtisadi inkişaf proqramları qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafını təmin etməklə yanaşı, kənd əhalisinin sosial rifahının yaxşılaşdırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi sahəsində də əhəmiyyətli rol oynayır: "Hazırda ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafı ölkədə həyata keçirilən aqrar siyasətin əsas istiqamətlərindəndir. Rayonumuz əhalinin sayına və adambaşına düşən torpaq sahəsinin azlığına görə ölkədə ilk yerlərdən birini tutur. Masallı rayonunda kənd təsərrüfatına yararlı 32 min 519 hektar torpaq sahəsinin 26 min 722 hektarını xüsusi mülkiyyətə verilmiş pay torpaqları təşkil edir. 24 min 907 hektar əkin kateqoriyasında olan torpaq sahəsidir ki, bunun da 10 min 197 hektarı suvarılandır".



Masallı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Akif Həmidov bildirib ki, rayon ərazisində 10 min 131 hektar əkin sahəsinin suvarma suyuna olan tələbatı Viləşçay su anbarı, Babaser su anbarı, sututarlar və artezian quyuları vasitəsilə təmin olunur: "Suvarma suyunun itkisiz və maneəsiz tələbatçılara çatdırılması üçün idarənin Xırmandalı, Həsənli, Köçəkli, Qarğalıq, Xıl, Gəyəçöl, Boradigah, Babaser və digər kəndlərində olan suvarma kanallarında lildəntəmizlənmə, sahilbərkitmə işləri görülmüşdür. Hazırda bu istiqamətdə işlər davam edir".

Müşavirədə "Baba Bulağı" MMC-nin rəhbəri Zəmanə Babayeva-Cəfərzadə sitrus və çayçılıq, Şamaxı rayon sakini fermer Seyran Muradov çiyələkçilik, Kolatan kənd sakini fermer Fikrət Məmmədov sitrus və çayçılıq barədə çıxışlar etdikdən sonra fermer və torpaq mülkiyyətçilərinin sualları cavablandırılıb.

*S.CAVADOV,*
*"Azərbaycan"*




◆ Günahsızlar

# Dìn alìmìnìn acı taleyi

**XI Ordunun Hərbi İnqilabi Şurası və yeni qurulmuş sovet hökuməti öz fəaliyyətinin ikinci günü "Müsavat" və "İttihat" partiyalarının rəhbərləri ilə əməkdaşlıq etmək barədə müqavilə imzalayır. Lakin bu müqavilə tezliklə Pankratovun rəhbərlik etdiyi XI Ordunun xüsusi şöbəsi tərəfindən pozulur. Həmin şöbə, sonra isə Fövqəladə Komissiya (ÇK) kütləvi həbslər aparmağa başlayır, sürgün düşərgələri az vaxtda Azərbaycanın qabaqcıl ziyalı nümayəndələrinin hesabına doldurulur.**

Sonradan 1920-1930-cu illərdə bədnam "kollektivləşmə" dövrü start götürür. Ortabab kəndlilər qolçomaq adı ilə bir sinif kimi ləğv edilməyə başlayır. Sovet cəza orqanları tərəfindən onların bütün mülkiyyətlərinin əllərindən alınması kəndlilərin kütləvi çıxışlarına səbəb olur. Bu çıxışları banditizm adlandıran siyasi orqanlar həmin narazılıqları silah gücünə çox amansızlıqla yatırdırlar.

"Qurani-Kərim"i ilk dəfə Azərbaycan dilinə çevirən və bu müqəddəs kitabın təfsirini (izahını) yazan, xalqın maariflənməsində, Bakıda qızlar məktəbinin açılmasında xidmətləri olan bu din xadimi "Quran"ı ərəb dilindən Azərbaycan dilinə tərcümə edəndən sonra mollalar arasında ona qarşı hücumlar artmışdı. O dövrdə mollalar istəmirdilər ki, camaat "Qurani-Kərim"i dərindən sənədlər alsınlar: müsəlman qızları şəriət məktəbində təhsil ala bilər ya yox...

Bununla da axund Mir Məhəmməd Kərim ağa və başqa ruhanilər qaragüruhçuların təqiblərindən xilas olurdular.

Bundan əlavə, Mir Məhəmməd Kərim ağa ədəbi fəaliyyətlə də məşğul idi. O, Şərq dillərindən əsasən ərəb dilindən bir sıra əsərləri Azərbaycan dilinə tərcümə edirdi. Böyük ərəb yazıçısı və alimi Circi Zeydanın islam tarixinə aid on yeddi romanından beşini Azərbaycan dilinə tərcümə etmişdi. Bunlardan "Özreyi-Qüreyş", "Kərbəla yanğısı", "Osmanlı inqilabı", "İslamın mədəniyyət tarixi", "On yeddi Ramazan" tarixi romanlarının tərcüməsi oxucular tərəfindən rəğbətlə qarşılanır.

Axund Şam və Fələstində müsəlmanlarla səlibçi-xristianlar arasında gedən 200 illik (490-690) müharibəni təsvir edən "Səlib müharibəsi" romanını yazır və 1913-cü ildə nəşr etdirir.

Görkəmli din xadimi təlatümlü 1937-1938-ci illərdə antisovet elementlərində siyahıya düşür. 1938-ci il fevralın 13-də Azərbaycan XDİK Maştağa rayon şöbəsinin əməliyyat müvəkkili köməkçisi Yaroşkeviç qazı Mir Məhəmməd Kərim ağanı dindirir:

Sual: "Ən yüksək dini rütbə olan qazı rütbəsini siz hansı ildən hansı ilədək daşıyırdınız?"

Cavab: "1904-cü ildən 1918-ci ilədək. Eyni zamanda mən Bakı Quberniya Məclisinin sədri idim".

Sual: "Müsavat hökuməti nəzdində sizin nə kimi vəzifəniz var idi?"

Cavab: "O zaman mənim heç bir vəzifəm yox idi, çünki Müsavat hökuməti işə gələndən mən istefa verib qazılığımdan da kənara çəkildim".

Sual: "Siz əksinqilabi Müsavat təşkilatının üzvü olmusunuzmu?"

Cavab: "Əksinqilabi Müsavat təşkilatına mən heç vaxt daxil olmamışam".

Sual: "Siz hansı ildə seçki hüququndan məhrum edilib qolçomaqlıqdan salınmısınız?"

Cavab: "Seçki hüququndan mən Azərbaycanın sovetləşmə günündə məhrum olmuşam. Bu hüququ məndən din xadimi olduğum üçün alıblar".

Sual: "Sizin qohumlarınızdan xaricdə kimlər var?"

Cavab: "Heç kəs yoxdur".

Sual: "Sizin qohumlarınızdan əksinqilabi fəaliyyətinə görə kim tutulub?"

Cavab: "Mənim ögey qardaşımın oğlu Mir Əbdülhəsən tutulub, amma nəyə görə tutulduğunu deyə bilmərəm".

Sual: "Öz kəndinizin sakinlərindən kiminlə əlaqəniz var?"

Cavab: "Heç kəslə əlaqə saxlamıram, amma əhali arasında hörmətim var".

Sual: "Sizin həmyerlilərinizdən hansı biri ilə şəxsi-qərəzliyiniz və ya düşmənçiliyiniz var?

Cavab: "Mənimlə heç kəsin nə şəxsi-qərəzliyi, nə də düşmənçiliyi var".

Sual: "Siz ondan ötrü təqsirləndirilirsiniz ki, kolxozçular və fərdi əməkçilər arasında mövcud olan quruluşun əleyhinə əks-inqilabi təbliğat aparırsınız. Bunu boynunuza alırsınız?"

Cavab: "Xeyr, boynuma alımıram".

Elə həmin gün Yaroşkeviç Mərdəkan kənd sakinlərindən üç-dörd nəfəri şahid sifəti ilə dindirir. Onlar bildirirlər ki, Məhəmməd Kərim Mir Cəfər oğlu tanınmış din xadimi, qazıdır. O, mövcud quruluşun əleyhinə düşmənçilik əhvali-ruhiyyəsində olaraq kənd əhalisi arasında daim dini təbliğat aparır. Məsələn, üç-dörd ay bundan əvvəl Mir Məhəmməd Kərim dəfndə iştirak edib deyirdi ki, qadın heç vaxt kişi ilə bərabər ola bilməz. Bu, düzgün deyil. Çünki qadında kişi əlamətləri yoxdur, qadının nə gücü var, nə də hünəri. Bundan başqa, iki ay əvvəl bir dəfndə iştirak edən Mir Məhəmməd Kərim ağa dəfn mərasimini yeni qaydalarla - mollanın iştirakı olmadan keçirildiyi üçün dedi: "Gör Şura hökuməti Azərbaycan xalqını nə günə salıb ki, o öz ölülərini şəriətdə göstərildiyi kimi dəfn edə bilmir. Şura hökuməti bizim bütün dinimizi, imanımızı məhv edib. Allahı unutmaq olmaz, çünki sizin bütün bəlalarınız Alla-təalanın cəzasıdır. Cürbəcür təbliğata uymaq olmaz, gələcək haqqında fikirləşmək lazımdır".

Bu ifadələr hörmətli din alimini güllələnməyə doğru aparırdı. 1938-ci il fevralın 17-də Mir Məhəmməd Kərim ağa ikinci və axırıncı dəfə dindirilir. Ona qarşı yönələn ittihamları qəti şəkildə rədd edir. Həmin il fevralın 23-də Yaroşkeviç belə bir ittiham tərtib edir: "Vətəndaş Mir Məhəmməd Kərim Cəfər oğlu, 83 yaşlı, ali ərəb dini təhsilli qazı, məhkum olunmamış, səsindən məhrum olmuş, kənd təsərrüfatı ilə məşğul olan 15030 saylı cinayət işinə baxıb müəyyən etdim: "Mir Məhəmməd Kərim Mir Cəfər oğlu keçmişdə Bakı quberniyasının qazısı olaraq son vaxtlar kənddə artıq ifşa olunub məhkum edilən xalq düşmənləri ilə əlaqəyə girib, mövcud quruluşa düşmənçilik edərək öz dini ayinlərindən antisovet təbliğatı üçün istifadə edirdi. O, sovet hökumətinə böhtan atır, kəndliləri seçkilərdə iştirak etməməyə çağırır, qadınların ictimai-siyasi həyatda iştirakı əleyhinə idi... Müttəhim özünü müqəssir bilmədi, lakin şahidlərin ifadələri ilə ifşa olundu".

Üçlük qərara alır ki, Mir Məhəmməd Kərim Mir Cəfər oğlu əks-inqilabi fəaliyyətinə görə güllələnsin.

1956-cı il avqustun 31-də Mir Məhəmməd Kərim ağanın oğlu SSRİ-nin baş prokuroru Rudenkonun adına ərizə yazıb atasının taleyi haqqında məlumat almağı xahiş edir. Ona xəbər verirlər ki, guya Mir Məhəmməd Kərim ağa 1940-cı il oktyabrın 14-də beyin qansızmasından vəfat etmişdir. Lakin bu, reallığa uyğun gəlmədiyi üçün iş yenidən yoxlamaya göndərilir. Axundun əleyhinə ifadə verənlər yenidən dindirilir. Onlar yazılan ifadələrin düzgün olmadığını bildirirlər. Ona görə də 1960-cı il iyulun 15-də Azərbaycan SSR Ali Məhkəməsi qərar çıxarır ki, Mir Məhəmməd Kərim Mir Cəfər oğlu haqqında 2 mart 1938-ci il tarixli qərar ləğv edilsin, onun işi sübuta yetmədiyi üçün xətm olunsun. Özünə isə ölümündən sonra bəraət verilsin.



Bolşevizmə mənfi münasibətin təşəkkülündə əsas rollardan birini müsəlman ruhaniləri oynayırdılar. Bolşeviklər sovet hakimiyyətinin ilk günlərindən nüfuzlu müsəlman ruhanilərini ağır işgəncələrlə, ən amansız üsullarla aradan götürməyə başlayırlar.

Həmin din xadimlərindən biri də Mir Məhəmməd Kərim ağa Cəfərzadə Bakuvi idi. 15030 nömrəli cinayət işinin birinci vərəqində yazılırdı: "Tarixi olmayan Qala-Maştağa rayonu üzrə fəal antisovet ünsürlərin cəmiyyətdən kənar edilib ləğv olunası şəxslərin siyahısından çıxarış". Onun adı bu siyahıda 18-ci idi. 83 yaşlı Mərdəkan sakini, keçmiş Zaqafqaziya qazısı Mir Məhəmməd Kərim ağa dinin gizli yayılması, çadraların götürülməsi əleyhinə təbliğat aparmaq ittihamı ilə təqsirləndirilirdi. Siyahıya Azərbaycan SSR XDİK komissarının müavini Borşev qol çəkmişdi.

1938-ci il fevralın 13-də XDİK 203 nömrəli orderlə qazı Mir Məhəmməd Kərim ağanı Mərdəkandakı evində həbs edir. Axtarış zamanı onun evindən "39 ədəd müxtəlif antisovet Quran" müsadirə olunur. Kim idi bu din xadimi?

Mir Məhəmməd Kərim ağa Bakıda anadan olduğu üçün özünü Bakuvi adı ilə tanıtmışdı. O, İçərişəhərdə yaşayan tanınmış seyid, Bakının hörmətli şəxslərindən sayılan Ağa Seyid Məhəmmədin nəvəsi, həmçinin qəbri insanların inam və ziyarət yeri olan Mir Mövsüm ağanın xalasının həyat yoldaşı idi.

dən mənimsəsinlər. Çünki "Quran"dan xəbəri olmayanları aldatmaq, bu müqəddəs kitaba istədikləri kimi şərh vermək bəzi ruhanilərə sərfəli idi. "Quran" tərcümə edilərsə, o zaman xalq onu öz ana dilində oxuyub maariflənər, nəticədə fırıldaqçı mollaların saxta sözlərinə inanmazlar. O həmçinin müqəddəs kitabın üçcildlik təfsirini yazır və "Quran"la birlikdə mesenat Hacı Zeynalabdin Tağıyevin köməyi ilə 1904-cü ildə "Kaspi" qəzetinin Bəxariyə mətbəəsində çap etdirir. Onun bu zəhmətinin müqabilində Hacı kitabların ağırlığında Mir Məhəmməd Kərim ağaya qızıl da bağışlayır.

Bu hörmətli din alimi öncə İçərişəhərdəki "Şah məscidi"ndə axund, sonra isə yüksək bilik və bacarığına görə Bakı quberniyasının qazısı təyin edilir. Bu ərəfədə o, şəhərin ictimai-mədəni həyatında, xalqının maariflənməsində fəal iştirak edirdi. İsmailiyyə binasının təməlqoyma mərasimində Bakının qazısı olaraq dualar oxumuşdu. O zaman bəzi ruhanilər qızlara təhsil vermək təklifindən qəzəblənərək camaatı ayağa qaldırır, hətta onları "cihad"a çağırmaqdan belə çəkinmirdilər. Lakin qız məktəbini açmaq təklifini bəyənmiş H.Z.Tağıyev onların bəhanələrini kəsmək üçün şəhərin maarifpərvər axundlarından bir neçəsini öz vəsaiti hesabına islamın müqəddəs sayılan yerlərinə - Məkkəyə, Kərbəlaya, Xorasana, Məşhədə və başqa yerlərə göndərir. Onlara tapşırırdı ki, həmin yerlərdə olan mötəbər rəsmi din xadimlərin-

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Siyasi repressiya qurbanları" muzeyi

**2019-cu il may ayının 24-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin inzibati binasında "Siyasi repressiya qurbanları" muzeyinin açılışı olmuşdur.**

Muzeyin ekspozisiyası ölkəmizin tarixinin ən acı səhifələrini əyani surətdə əks etdirir. 1920-1950-ci illərdə dövlətin apardığı siyasət nəticəsində on minlərlə ictimai və dövlət xadimi, elm, mədəniyyət, incəsənət işçiləri, sıravi vətəndaşlar təqib olunmuşdur.

1950-ci illərin ikinci yarısında siyasi repressiya qurbanlarının əksəriyyətinə bəraət verilməsinə baxmayaraq, bolşevizmin hökmranlıq etdiyi illərdə siyasi repressiyalar haqqında məlumatların yayılmasına qadağa qoyulmuş, xalqın ayrı-ayrı görkəmli şəxslərinin




güllələnməsi və ya sürgünü onların "kommunizm quruculuğuna əngəl törətmək" ittihamları ilə izah edilirdi. 15 mart 1996-cı il tarixdə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin imzaladığı "Siyasi repressiya qurbanlarının reabilitasiyası haqqında" Azərbaycan Respublikası Qanununda bu hadisəyə hüquqi qiymət verilmişdir. DSX-nin "Siyasi repressiya qurbanları" muzeyinin təşkilində məqsəd repressiya qurbanlarının xatirəsinə ehtiramla yanaşı, yaxın keçmişimizin qanlı səhifələri, totalitar rejimin hakim ideologiyadan fərqli düşüncəyə sahib vətəndaşlara münasibətdə dözümsüzlük nümayiş etdirərək onların saxta ittihamlar əsasında güllələnməsi, sürgün edilməsi və işgəncələr verilməsi haqqında böyüməkdə olan nəsli düzgün məlumatlandırmaqdır. Muzey mülki vətəndaşların ziyarəti üçün açıqdır. Burada araşdırma aparmaq üçün tələbələrə, tədqiqatçılara şərait yaradılıb. Onlar muzeyin kitabxanasında saxlanan kitablarla, məsuliyyətə cəlb olunmuş şəxslərin cinayət işləri ilə tanış olmaq imkanı əldə edə bilərlər.

◆ Qırmızı terror

# Gecikmiş bəraət yalnız təsəllidir

**1920-ci ildən başlayan və 1937-ci ildə milli fəlakət səviyyəsinə çatan repressiyaların qurbanları arasında sayılıb-seçilən onlarca ziyalımız da olmuşdur. Keçmiş sovet rejimi sanki cəmiyyəti qaranlıqda saxlamaq üçün ziyalıları uydurma cinayət işləri ilə ya uzaq Sibir çöllərinə sürgünə göndərmiş, ya da ən ağır cəzaya məhkum edərək güllələmişdi. Ölümlərindən uzun illər keçəndən sonra isə elə həmin rejimin məhkəməsi onlara bəraət vermişdir. Amma bu bəraət heç nəyi geri qaytarmır...**



Nə qədər ağrılı-acılı olsa da, arxiv materialları ilə tanış olarkən repressiya illərində ziyalılarımıza qarşı böyük amansızlıq, qəddarlıq edildiyinin şahidi oluruq. Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində misilsiz xidmətlər göstərmiş bir çox ziyalımız heç bir günahları olmadan müxtəlif illərdə repressiya qurbanlarına çevrilmişlər, qəddar sovet rejiminin ölüm maşınından keçmişlər.

Amansız repressiya qurbanlarından biri də şair, publisist və dövlət xadimi Böyükağa Mirqasım oğlu Talıblıdır. Sadə bir həyat yaşamış Böyükağa Talıblı dövrünün tanınmış ziyalılarından biri olmuşdur. O, 1897-ci ildə, xalqımızın ən əziz bayramlarından biri olan Novruz bayramında, martın 21-də Salyan rayonunun Cavad qəzasında dünyaya göz açmışdı. 1909-cu ildən 1915-ci ilə kimi dövrünün tanınmış təhsil ocaqlarından biri sayılan Bakı Realnı Məktəbində oxumuşdur.

1915-ci ildə təhsilini uğurla başa vurduqdan sonra Petroqrad vilayət komissarlığında müsəlman işləri üzrə təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. Bir il sonra, 1916-cı ildə həmin vilayətdə azərbaycanca buraxılan "Hürriyyət" qəzeti redaksiyasının əməkdaşı kimi fəaliyyətə başlamışdır. O, 1915-1920-ci illərdə həmçinin Krım cəbhəsində əks-inqilabi qüvvələrə qarşı mübarizə aparmış, eyni zamanda "Melitopolskiye izvestiya" qəzeti ilə sıx əməkdaşlıq etmişdir.

Böyükağa Talıblı ədəbi fəaliyyətə çox gənc yaşlarından, hələ 1911-ci ildə Bakı Realnı Məktəbinin üçüncü sinfində oxuyarkən başlamışdır. Onun ilk hekayəsinin adı da çox maraqlıdır: "Yaxşı məsləhət hər şeydən yaxşıdır". Böyükağa Talıblının ilk hekayəsi 1912-ci ildə "Orucov qardaşları" mətbəəsində kitabça şəklində çap olunmuşdur. Bundan sonra müntəzəm olaraq dövri mətbuatda bir-birindən maraqlı məqalə və hekayələrlə çıxış etmişdir. Elə ilk qələm nümunələri ilə oxucuların və dövrünün tənqidçilərinin diqqətini özünə çəkmişdi. O, 1916-cı ildə dramaturgiya sahəsində də qələmini sınamışdır. "Keyf içində" adlı pyes də yazmışdır. Bu pyes böyük maraqla qarşılanmışdır.

Bakıda işlədiyi dövrdə Böyükağa Talıblı Azərbaycan Ədəbiyyatı Cəmiyyətinin sədri kimi milli mədəniyyətimizin inkişafı istiqamətində mühüm işlər görüb. O, bədii əsərlər yazmaqla bərabər, tərcümə işinə də böyük önəm verib. Cəmiyyətdə ictimai xadim kimi tanınan B.Talıblı Tiflisdə N.Nərimanov adına klubun nəzdində "Ədəbiyyat dərnəyi"ni yaratmış və onun ətrafına istedadlı gəncləri toplamışdır. Bu ədəbi dərnək Tiflis Azərbaycan Proletar Yazıçıları bölməsinin yaradılmasında böyük rol oynamışdır.

1920-ci ildə Böyükağa Talıblı Azərbaycana qayıtmışdır. Bacarığı və təcrübəsi nəzərə alınaraq fəhlə-kəndli müfəttişliyi komissarının müavini vəzifəsinə təyin edilmişdir. Bir müddətdən sonra isə Xalq Təsərrüfatı Şurasının sədri olmuşdur. Bu dövrdə "Kommunist" və "Azərbaycan füqərası" qəzetlərini redaktə etmiş, həmçinin Azərbaycan Dövlət Universitetində (indiki Bakı Dövlət Universitetində) mühazirələr oxumuşdur. 1921-ci il martın 30-dan 1921-ci il aprelin 15-dək "Kommunist" qəzetinin ikinci rəsmi redaktoru olmuşdur. Zaqafqaziya Federasiyasının fəhlə-kəndli komissarı təyin olunduğu 1922-1923-cü illərdə Tiflisdə çıxan "Yeni fikir" qəzetini redaktə etmişdir.

Zaman keçdikcə cəmiyyətdə böyük nüfuz qazanan Böyükağa Talıblı 1923-1932-ci illərdə Azərbaycan Xalq Ədliyyə komissarı, Mərkəzi Statistika İdarəsinin rəisi, Sovet Quruluşu və Hüquq İnstitutunun direktoru, respublika prokuroru, Bakı Plan İdarəsinin sədr müavini vəzifələrində işləmişdir. Həyat yavaş-yavaş onun üzünə gülməyə başlamışdır. 1932-1933-cü illərdə Moskvada Ali Partiya Məktəbində təhsilini də davam etdirmişdir. 1934-cü ildə AYB-nin üzvlüyünə qəbul olunmuşdur. Sonrakı illər o, Azərbaycan Kommunist Partiyası Bakı Komitəsinin və Azərbaycan Həmkarlar İttifaqı Şurası Rəyasət Heyətinin üzvü, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin, həmçinin Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

Əgər xalqının ziyalılarına qarşı 1937-ci ilin repressiyası başlamasaydı, şair, publisist, ictimai xadim Böyükağa Talıblı daha çox iş görəcək, bir-birindən maraqlı əsərlər yazacaqdı. Amma repressiya başqa görkəmli ziyalılarımız kimi onu da qəfil yaxaladı, gələcəyə gedən yollarını həmişəlik olaraq üzünə qapadı. Bütün mənalı ömrünü bu quruluşa sərf etmiş, partiyanın işi uğrunda yorulmadan çalışmış bir ziyalını qurama iftira və yalanlarla illərdən bəri xidmətində dayandığı ideyalarına qarşı düşmən çıxartdılar.

8 yanvar 1937-ci ildə 1934-1938-ci illərdə Zaqafqaziya Xalq Daxili İşlər Komissarları (XDİK) idarəsinə başçılıq etmiş Yuveliyan Sumbatov-Topuridzenin imzası ilə Böyükağa Talıblının həbsinə qərar verilir. İki gün sonra 10 yanvar 1937-ci ildə təhlükəsizlik baş leytenantı Atakişiyev və təhlükəsizlik mayoru Gerasimovun imzası ilə Böyükağa Talıblı Azərbaycan SSR Cinayət Məcəlləsinin 72-ci maddəsi ilə həbs edilərək Azərbaycan DİK idarəsinin zirzəmisinə salınır. Böyükağa Talıblı Azərbaycan SSR Cinayət Məcəlləsinin 64,69,70,73-cü maddələri ilə təqsirli bilinərək 12 oktyabr 1937-ci ildə güllələnməyə məhkum edilir. 14 oktyabr 1937-ci ildə isə həyat yoldaşı N.Talıblı da həbs olunaraq Bakı şəhərindəki ümumi rejimli həbsxanada saxlanılır. Ürəyi xalqı üçün işıqlı ideyalarla dolu olan Böyükağa Talıblı 1938-ci ildə, ömrünün ən gözəl çağında, 41 yaşında cəza tədbirləri dövründə "xalq düşməni" kimi güllələnir.

Böyükağa Talıblıya 20 ildən sonra bəraət verilir. Onun günahsız olduğu rəsmi şəkildə təsdiq olunur. Uzun illərdən sonra verilən bu bəraət isə heç nəyi geri qaytarmır, heç nəyi dəyişmir. Bu gecikmiş bəraət təsəllidən başqa bir şey olmur.

Böyükağa Talıblının özündən sonra əsərləri qalıb. Bu gün oxucular onun qələmindən çıxmış "Erkək Tükəzban", "Qırx zopa", "Keyf içində", "Tövbə", "Dirək" və başqa əsərlərini maraqla oxuyurlar. Xalqımız ədəbiyyatımızın, mədəniyyətimizin, mətbuatımızın inkişafında Böyükağa Talıblı kimi böyük işlər görmüş ziyalılarını heç vaxt unutmayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



# BMT Ukraynada mülki əhali arasında həlak olanların sayının artmasından narahatdır

**BMT Təhlükəsizlik Şurası "Ukraynada sülhün və təhlükəsizliyin qorunması" mövzusunda iclas keçirib. Məlumata görə, BMT Ukraynada mülki əhali arasında həlak olanların sayının artmasından narahatlığını bildirib.**




BMT Baş katibinin müavini ofisinin Avropa, Mərkəzi Asiya və Amerika şöbəsinin rəhbəri Kayoko Qoto bildirib ki, Ukraynadakı mülki şəxslər geniş yayılmış və intensivləşən hava hücumlarının zərbələrindən ziyan çəkməyə davam edirlər: "Ukraynada mülki itkilərin sayının həyəcanverici artmasından narahatıq. 2025-ci ilin yanvar-oktyabr ayları arasında ümumi rəqəm artıq bütün ötən ilin ümumi rəqəmini keçib". O qeyd edib ki, 2025-ci ilin 10 ayında mülki şəxslər arasında ölüm və yaralananların sayı 2024-cü ilin ümumi sayından çoxdur. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) məlumatına görə, 2022-ci ilin fevral ayından bəri 745 uşaq daxil olmaqla 14534 mülki şəxs həlak olub, 2375-i uşaq olmaqla, 38472 nəfər yaralanıb.

K.Qoto həmçinin Ukraynadakı münaqişənin Rusiya daxilindəki mülki şəxslərə də təsir etdiyini vurğulayıb və hər iki tərəfi dinc əhaliyə və mülki infrastruktura qarşı hücumları dayandırmağa çağırıb.

Ukraynada münaqişənin başlanğıcından bəri təxminən 3,7 milyon insan evlərini tərk etmək məcburiyyətində qaldığı xatırlanan iclasda BMT-nin Humanitar İşlər üzrə baş katibinin müavini və Təcili Yardım Koordinatoru Tom Fletçerin adından danışan Humanitar İşlərin Koordinasiyası Ofisinin (OCHA) rəhbəri Edem Vosornu Ukraynadakı humanitar vəziyyətə diqqət çəkib. E.Vosornunun sözlərinə görə, təkcə bu il təxminən 122 min insan didərgin düşüb ki, onların da əksəriyyəti cəbhə bölgələrinin sakinləridir. Onların arasında qadınlar, uşaqlar və yaşlılar üstünlük təşkil edir. E.Vosornu daxili köçkünlərin hazırda sığınacaqlarda və yarımçıq binalarda yaşadığını bildirib.

Onun bildirdiyinə görə, BMT və təşkilatın tərəfdaşları Ukraynada humanitar əməliyyatları davam etdirir və 2025-ci ilin yanvar-sentyabr ayları arasında 4,2 milyondan çox insana yardım göstəriblər. Humanitar proqramların maliyyələşdirilməsindəki çatışmazlıqları qeyd edən E.Vosornu 2025-ci ildə tələb olunan vəsaitin yalnız 2,63 milyard dollarının köçürüldüyünü bildirib. Bu isə ümumi məbləğin 46 faizidir.

***R.CƏFƏROV,***
***"Azərbaycan"***

# Hindistana məxsus qırıcı təyyarə Dubay aviaşousunda qəzaya uğrayıb

**Hindistanın Tejas çoxməqsədli qırıcı təyyarəsi Dubay aviaşousunda nümayiş uçuşu zamanı qəzaya uğrayıb. Pilot həlak olub. Təcili yardım xidmətləri hadisə yerində işlərini davam etdirir. Hindistan hakimiyyəti qəzanın səbəbini müəyyən etmək üçün komissiya yaradıb. Tədbirin təşkilatçıları isə iştirakçıları təxliyə edib.**



"İzvestiya"nın reportajında bildirilir ki, təyyarə nümayiş proqramının bir hissəsini yerinə yetirib və yerli vaxtla, təxminən, saat 14:10-da tamaşaçı zonası üzərindən uçarkən yerə çırpılıb. Pilot katapultdan istifadə edə bilməyib. Qəza yerində yanğın və tüstü aşkar edilib. Yanğınsöndürənlər alovun qarşısını alıb və təyyarənin qalıqlarını axtarmağa başlayıblar. Vəziyyət sabitləşdikdən sonra araşdırma başa çatdırılıb.

Dubaydakı təcili yardım xidmətləri də hadisədən dərhal sonra əməliyyatlara başlayıb. Yerli medianın məlumatına görə, episentrin ətrafındakı ərazi mühasirəyə alınıb.

Hindistan Müdafiə Nazirliyi ölkənin Hərbi Hava Qüvvələrinə məxsus təyyarənin itkisini təsdiqləyib. Nazirlik rəsmiləri uçuşun texniki məlumatlarını və şərtlərini nəzərdən keçirmək üçün istintaq komitəsinin yaradıldığını elan ediblər. Hindistan tərəfinin məlumatına görə, komitənin işi artıq başlayıb.

HAL Tejas qırıcı təyyarəsi Hindistan Aeronautics Limited (HAL) şirkəti tərəfindən hazırlanır. Layihə üzərində iş 1980-ci illərdə Hindistan Hərbi Hava Qüvvələri üçün yüngül çoxməqsədli təyyarə yaratmaq proqramının bir hissəsi olaraq başlayıb. Təyyarə rəsmi olaraq 2015-ci ildə istismara verilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Mədəniyyət təmizlikdən başlayır

**Bakının bəzi, xüsusən gözdən uzaq küçələrində, dalanlarında atılan zibil torbalarını, səpələnmiş tullantıları kim görməyib ki?! Bu görüntülər bizi bir sualla qarşı-qarşıya qoyur: biz həqiqətən təmizliyə və sanitar mədəniyyətinə hər yerdə əməl edən xalqıqmı? Axı şərt yalnız evimizin, yaxud həyətimizin parıldaması deyil. O həm də küçəmizin, məhəlləmizin, şəhərimizin, ölkəmizin təmizliyidir.**



Zibilləri küçəyə atan, yerə, üzr istəyirik, tüpürən, parklara tullantı qoyub gedən, ictimai yerlərdə ədəb-ərkan qaydalarına əməl etməyən insan, əslində, təkcə ətrafa yox, cəmiyyətin mədəni simasına da xələl gətirir, şəhərin abadlığına, təmizliyinə ləkə salır. Əslində, sanitar mədəniyyəti sadəcə gigiyenik qaydalara əməl etmək deyil. Bu, insanın özünə və yaşadığı mühitə olan hörmətinin təzahürüdür. Çünki təmizlik təkcə əllərimizi yumaq deyil, düşüncəmizi, münasibətimizi saf saxlamağımızdır. Əgər hər birimiz evimizdən çıxmazdan əvvəl "mən bu şəhərin bir parçasıyam" deyə düşünsək, küçələrimiz, parklarımız tullantı poliqonuna çevrilməz, ayağımızın altı ağız suyu ilə sulanmaz. Yaşadığımız şəhər, qəsəbə, kənd bizim güzgüdəki əksimizdir, onun təmizliyi mədəniyyətimizi əks etdirir. Çünki təmizlik həm də mədəniyyətdir, bəlkə də daha çox mədəniyyətdir.

Təəssüf ki, bəzən elə düşünürük ki, şəhərin təmizliyi yalnız bu işlə məşğul olan qurumların işidir. Amma belə deyil. Bu, hər birimizin işidir, yaxud işi olmalıdır. Cəmiyyətin mədəni səviyyəsini bilmək üçün bəzən küçədəki zibil konteynerlərinə nəzər salmağın kifayət olması təsadüfi deyil. Zibilləri konteynerlərin içinə yox, yanına atmaq, müxtəlif tullantılar üçün ayrılmış konteynerlərə məhəl qoymamaq sadəcə ətraf mühitə laqeyd münasibətimiz yox, həm də birbaşa bizim vətəndaşlıq məsuliyyətsizliyimizə işarədir.

Bir dəfə Bakı ətrafındakı küçələrdən birində qoyulmuş zibil qutusunun üstündə bu sözlərlə rastlaşdım: "Zibili konteynerə at - mədəniyyətini göstər". Bu o demək idi ki, Bakını təmiz saxlamaq sarıdan problemimiz var. Fikirləşmirik ki, siqaret kötüyünü və ya plastik qabı yerə atmamaqla təkcə ətraf mühiti qorumuruq, həmçinin mədəniyyətimizi, məsuliyyətimizi göstəririk.

Bu işdə əlaqədar qurumların da üzərinə vəzifələr düşür. Məhz bu baxımdan belə hallara yol verənlərə qarşı cərimə tətbiq edilməsi təqdirəlayiq addımdır. Fərqinə varmayıb, əhəmiyyət verməyib əlindəki tullantını yerə atdığına görə cibindən pul çıxan çətin ki, növbəti dəfə ətrafı zibilləsin. Məsələn, siqaret kötüyünü küçəyə atanlar üçün 300 manat məbləğində cərimə müəyyən edilib. Avtomobildən yola və ya yol kənarına tullantı atanlar üçün isə daha çox cərimələr nəzərdə tutulur. Amma bu cərimələr insanları cəzalandırmaq üçün deyil, düşündürmək, tərbiyələndirmək üçündür. Çünki cərimələrin tətbiq olunması birbaşa ictimai məsuliyyətin artırılması məqsədini güdür. Bu isə o deməkdir ki, hökumətin bu istiqamətdə atdığı addımlar sadəcə cəza deyil, həm də nümunəvi davranışın formalaşması üçün vasitədir. Cəmiyyət o zaman mədəni olur ki, insan öz davranışının nəticəsini dərk edir və qaydalara əməl etməyi özünə borc bilir.

Təbii ki, söz təmizlikdən gedir. O təmizlikdən ki, onu həm də ekoloji düşüncənin başlanğıcı hesab etmək mümkündür. Bugünkü plastik tullantı sabah torpağın zəhərlənməsinə, havanın, suyun çirklənməsinə səbəb olur. Ona görə də təmizliyi sadəcə "zibil" problemi kimi deyil, sağlamlıq məsələsi kimi də qəbul etməliyik.

Amma bu vacib işdə təkcə ayrı-ayrı fərdlər məsuliyyət daşımırlar. Yerli icra orqanlarının, kommunal və digər əlaqəli qurumların da bu işdə üzərlərinə az məsuliyyət düşmür. Bu gün, məsələn, hətta paytaxtın küçə və prospektlərində tullantı qabları problemi yaşanırsa və bu səbəbdən ətraf zibillənirsə, günah təkcə vətəndaşlarda deyil. Çünki əlində, yaxud cibində zibil gəzdirməyi, hətta bəzən qeyd etdiyimiz səbəbdən onu evə daşımağı hər kəs bacarmır.

Beləliklə, təmiz və mədəni şəhər yalnız cərimə ilə deyil, vətəndaşın və şəhər təsərrüfatının birgə səyləri ilə mümkündür. Araşdırmalara görə, o şəhər təmiz olur ki, orada ictimai intizam yüksəkdir. İntizamlı adam anlayır ki, cəmiyyətin nizamı onun fərdi davranışlarından başlayır. Küçədəki təmizlik, yol hərəkətində qaydalara riayət etmək, ictimai nəqliyyatda nizam-intizam bir-birini tamamlayan mədəniyyət zəncirinin halqalarıdır.

Unutmayaq ki, təmizlik imandandır. Bu, yalnız dini deyil, həm də mənəvi bir çağırışdır. Əgər hər birimiz ətrafımızda azacıq da olsa, təmizlik yaratsaq, bütövlükdə şəhərimizin siması dəyişər. Cəmiyyətin rifahı, şəhərin təmizliyi, gələcək nəsillərin sağlamlığı bizim bugünkü davranışlarımızdan asılıdır. İntizamlı vətəndaş, mədəni cəmiyyət və təmiz şəhər - bu üçlük bir-birinin davamıdır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## BİLDİRİŞ

"HUN TRADİNG" MMC-nin müflis elan olunması ilə bağlı müvafiq qaydada Bakı Kommersiya Məhkəməsinə müraciət edilmişdir. E-2-2(113)-8247/2025 saylı iş üzrə növbəti hazırlıq iclası 02.12.2025-ci il saat 15:15 tarixinə təyin olunmuşdur.

**Ünvan: AZ1040, Bakı şəhəri, Bakıxanov qəsəbəsi, O.Əfəndiyev küçəsi.**
**Əlaqə telefonu: (012) 525-20-74.**

***"HUN TRADİNG" MMC***


# Bilmək istəyirəm

*Əvvəl çalışdığım zavoda qayıtmışam və məni sınaq müddəti ilə işə götürüblər. Bu nə dərəcədə düzgündür? Bilmək istəyirəm ki, sınaq müddəti nə qədər ola bilər, sınaq müddəti ərzində əməkhaqqı verilməlidirmi və sınaq müddəti bitəndə işə davam etməyimə zəmanət varmı, yoxsa işə götürməyə bilərlər?*

***Mətin İSMAYILOV,***
***Xırdalan şəhəri***

- Sualınıza cavab olaraq bildiririk ki, əmək müqaviləsi bağlanılarkən, işçinin peşəkarlıq səviyyəsini və əmək funksiyasını icra etmək bacarığını yoxlamaq məqsədilə sınaq müddəti müəyyən edilə bilər. Sınaq müddəti altı ayadək bağlanmış müqavilələrdə ən çoxu iki həftə, digər hallarda isə ən çoxu üç ay ola bilər. Sınaq müddəti ərzində işçi faktiki işlədiyi günlər üçün əməkhaqqı almalıdır və bu dövr əmək stajına daxil edilir. Sınaq müddəti bitənədək tərəflərdən biri üç gün əvvəl yazılı xəbərdarlıq etməklə müqaviləni poza bilər. Əgər heç bir tərəf müqaviləyə xitam verməzsə, işçi sınaqdan çıxmış hesab olunur və əmək münasibətləri davam edir. Lakin sınaq müddəti ərzində işəgötürən əsaslandırılmış əmrlə əmək müqaviləsinə xitam verə bilər və bu halda işçinin işdə qalmasına zəmanət yoxdur. Sınaq müddəti göstərilməyən müqavilə isə sınaqsız bağlanmış sayılır və bu halda sınaq müddəti tətbiq edilə bilməz.

*1989-cu ildən fasiləsiz işləyirəm. 2006-cı ilə qədər iş stajım 17 ildir. Hazırda əmək fəaliyyətim davam edir və şəxsi fərdi hesabıma vəsait yığılır. Sualım belədir: pensiyaya çıxdıqda hesabıma yığılan pensiya kapitalı üzrə veriləcək pensiyanın üzərinə 2006-cı ilə qədər olan əmək stajım nəzərə alınaraq minimal pensiya məbləği də əlavə ediləcəkmi, yoxsa yalnız yığılan vəsait əsasında pensiya hesablanacaq?*

***Lalə MUSTAFAYEVA,***
***Bakı şəhəri***

- Bildiririk ki, əmək pensiyasının məbləği əsasən fərdi şəxsi hesabınızda toplanan pensiya kapitalına əsasən hesablanır və 2006-cı il yanvarın 1-dək olan əmək stajınız bu kapitala çevrilərək fərdi hesabınızda nəzərə alınır. Həmin dövr üzrə hər il üçün müəyyən edilmiş məbləğ (hazırda 306 manat) pensiya kapitalı kimi hesablanır və bu, pensiya məbləğinizin hesablanmasına təsir edir. Əgər hesablanmış pensiya məbləğiniz qanunla müəyyən olunmuş minimum əmək pensiyası məbləğindən az olarsa, bu halda pensiyanız minimum məbləğə çatdırılır və sizə həmin məbləğ ödənilir. Yəni 2006-cı ilə qədər olan stajınız birbaşa əlavə kimi deyil, kapitala çevrilməklə nəzərə alınır, lakin yekunda pensiyanız minimumdan az olarsa, dövlət tərəfindən minimum pensiya təmin edilir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Qarlı havalara hazırlıq işləri davam edir

**Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq qarlı havalara hazırlığın vəziyyəti ilə bağlı şəhərin rayonlarında kommunal, təsərrüfat xidmətlərinin, idarə və təşkilatların, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir.**

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən "Azərbaycan" qəzetinə verilən məlumata görə, müşavirələrin əsas məqsədi rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığın vəziyyətinin araşdırılması, bu zaman görülməsi zəruri olan işlərin müzakirəsidir.

Növbəti müşavirələr paytaxtın Xəzər, Pirallahı və Qaradağ rayonlarında keçirilib. Müşavirələrdə qeyd edilib ki, rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərləri qarlı günlərdə üzərlərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi üçün hazır olmalıdırlar. Hər bir quruma qarın təmizlənməsi üçün lazımi qədər alətin, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilib. Rayondakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumlar, bələdiyyə, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinə özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etmək tapşırılıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***


Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Mirzə Eldar oğlu Əhmədovun adına verilmiş Abşeron rayonu, stansiya Sumqayıt, Şəfəq qəsəbəsi, bina 39, mənzil 40 ünvanına aid sənədlər itdiyi üçün etibarsız sayılır.



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20



BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4071
Sifariş 2347
Qiyməti 60 qəpik